# Xalq qəzeti

Xalqın qəzeti!

№ 205 (30321) 22 sentyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Günün xəbəri

**Sentyabrın 21-də Azərbaycan BMT Təhlükəsizlik Şurasının Qarabağ müzakirəsində haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Ermənistanın Təhlükəsizlik Şurasından sui-istifadə cəhdləri bu dəfə də rədd edildi.**

# İlham Əliyevin böyüklüyü və dünyaya çağırış ruhu – tam suverenlik, Cənubi Qafqazda sülh, Ermənistana şans

**Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa 20 sentyabr 2023-cü il tarixli müraciətində bildirdikləri onu deməyə əsas verir ki, torpaqlarımızda otuz ildən artıq müddətdə mövcud olan erməni separatizminin kökü kəsildi.**



Həqiqətən, bu, çox böyük hadisədir. Qətiyyətlə söyləyə bilərik ki, biz bir toplum olaraq qürurverici, fəxarət dolu olaya şahidlik etdik. Əlbəttə, olayın müstəsnalığının ən mükəmməl ifadəçisi elə dövlətimizin başçısının özüdür. Onun müraciətindəki hər fikir Azərbaycan xalqı üçün tarixi əhəmiyyət kəsb edən hadisənin miqyasını Cənubi Qafqaz, bütövlükdə isə, dünya müstəvisinə daşıyır. İlham Əliyev böyüklüyü də elə budur.

***

Azərbaycan Prezidenti, ilk növbədə, lokal xarakterli antiterror tədbirlərini zəruri edən məqamlardan söz açır. Mövcud istiqamətdə mükəmməl xronoloji təsvirə üstünlük verir. Ermənistan və Qarabağdakı separatçı rejimin 19 sentyabr tarixinin yaşanmasını doğuran "fəaliyyətinin" ayrı-ayrı məqamlarını vurğulayır. Dövlətimizin başçısı diqqəti mina terroruna yönəldir. O terrora ki, 2020-ci ildən bu yana xeyli sayda can alıb. "Bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır. Yəni, bu, bir daha onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün bu minalar gətirilmişdir".

Nəinki qorxunc kabusa çevrilmiş mina terroruna, ümumən, 44 günlük müharibədən sonra reallaşdırılmış çoxsaylı təxribat əməllərinə, atəşkəsin pozulması hallarına və digər neqativ məqamlara görə cavab verilməli idi və verildi də. Dövlətimizin başçısının vurğuladığı kimi, qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onun istənilən oyunbazlığı layiqli cavabını alacaq.

Ancaq bu cavabın özündə də humanizm və ədalət prinsipləri gözlənildi. Qarabağda yaşayan erməni sakinlər zərbə altına düşmədi, onların həyatları üçün təhlükə yaradan amillər ciddi şəkildə nəzərə alındı. Əslində, peşəkarlıq elə budur. Ona görə cənab Ali Baş Komandan lokal xarakterli antiterror tədbirlərini həyata keçirən hərbçilərimizin əməyinə böyük dəyər verir. Bu dəyər müstəsna qədirbilənlik nümunəsidir: "Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir".

*(ardı 3-cü səhifədə)*

## Yevlax görüşü konstruktiv və müsbət mühitdə keçib

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti əsasında 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov Qarabağın erməni sakinlərinin təmsilçiləri qismində Sergey Martirosyan və David Melkumyan ilə görüşüb.**



Rusiya–Türkiyə Birgə Monitorinq Mərkəzinin Rusiya tərəfinin rəhbəri kontr-admiral Oleq Semyonov iştirakçı qismində görüşə qatılıb.

Konstruktiv və müsbət mühitdə keçən görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılıb.

Ramin Məmmədov tərəfindən reinteqrasiya üzrə planlar təqdim edilib.

Həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin antiterror tədbirlərinin dayandırılması üzrə 20 sentyabr tarixli bəyanatında əks olunmuş məsələlərin tez bir zamanda icrasının vacibliyi vurğulanıb.

(ardı 2-ci səhifədə)

## Paşinyan duruş gətirə biləcəkmi?



**Azərbaycan Ordusunun sentyabrın 19-da Qarabağda keçirməyə başladığı və bir sutka ərzində separatçı xunta rejiminin təslim olması ilə başa çatan lokal xarakterli antiterror tədbirlərinə Ermənistanın münasibəti diqqəti cəlb edir.**

Ordumuz əvvəlki dövrlərdə özünün suveren ərazilərinin digər hissələrində qanunsuz silahlı dəstələrə qarşı antiterror tədbirləri keçirərkən Ermənistanın baş naziri özünü oda-közə vurur, dünyanın böyük dövlətlərinin rəhbər şəxslərinə zənglər edir, haray-həşir salır, necə deyərlər, daş atıb başını tuturdu. Bu dəfə isə biz bunun şahidi olmadıq.

*(ardı 6-cı səhifədə)*

## Azərbaycan yenə dünyaya nümunə göstərdi

Səhifə ⇨ 6

## Azərbaycan BMT TŞ-nin Qarabağ müzakirəsində haqlı mövqeyini qətiyyətlə müdafiə etdi

### Ermənistanın Təhlükəsizlik Şurasından sui-istifadə cəhdləri rədd edildi

**Erməni əsilli sakinlərlə Azərbaycanın mərkəzi hökumət rəsmiləri arasında birbaşa dialoqla müşayiət olunan tərksilah və demilitarizasiyanın praktiki icrasına başlandığı bir vaxtda beynəlxalq ictimaiyyət tərəfindən hazırkı vəziyyətin nəzərdən keçirilməsi aktuallıq və faydalılıq baxımından mövcud reallıqlara uyğun olmalıdır. Birtərəfli və qərəzli, əsas etibarı ilə Təhlükəsizlik Şurasında bugünkü müzakirələrin çağırılmasının kökündə duran məhdud siyasi mülahizələr və ya lobbi əlaqələrindən irəli gələn yanaşma tamamilə qeyri-məhsuldar və faydasızdır.**

Bunu Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Təhlükəsizlik Şurasında Qarabağla bağlı müzakirəsindəki çıxışında deyib.

Belə bir fəaliyyətə arxalanmağın artıq bir neçə dəfə uğursuzluqla nəticələndiyini xatırladan nazir qeyd edib: "Bu, yalnız diqqəti real normallaşma prosesindən yayındıra bilər ki, bu da Azərbaycan və Ermənistanın deyil, mövcud fikir ayrılıqlarını öz siyasi məqsədləri üçün sui-istifadə etməkdə davam edən müəyyən kənar qüvvələrin marağındadır.

Beləliklə, 30 il davam etmiş qanlı münaqişədən sonra Ermənistanla Azərbaycan arasında yaxşı qonşuluq münasibətləri qurmaq üçün tarixi imkanın yarandığı hazırkı həlledici məqamda bütün beynəlxalq ictimaiyyət, o cümlədən Təhlükəsizlik Şurası tərəfindən Ermənistanın destruktiv hərəkətləri ilə bağlı risklər və təhdidlərin adekvat şəkildə dərk edilməsi və Ermənistanın beynəlxalq hüquqa zidd əməllərini ört-basdır etmək üçün Təhlükəsizlik Şurasından sui-istifadə etmək cəhdlərinin qəti şəkildə rədd edilməsi olduqca vacibdir".

*(ardı 2-ci səhifədə)*

## BP Azərbaycanın mötəbər enerji ortağıdır

**Azərbaycanın enerji sektorunda uğurla əməkdaşlıq etdiyi Böyük Britaniyanın BP şirkəti ölkəmizdə gələcəkdə reallaşdırılacaq neft-qaz və alternativ enerji layihələrinə də maraq göstərir. Bununla bağlı fikirlər şirkət rəsmilərinin sentyabrın 20-də Bakıya səfəri zamanı səsləndirilib.**



Xəbər verildiyi kimi, BP-nin İdarə heyətinin sədri Helge Lund, hasilat və əməliyyatlar üzrə icraçı vitse prezidenti Qordon Birrel və şirkətin sabiq icraçı direktoru Mədinqli lordu Braun SOCAR-ın ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Gülüstan sarayında keçirdiyi tədbirdə iştirak etmək üçün Bakıda olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də BP şirkətinin İdarə Heyətinin sədri Helqe Landı qəbul edib. Qəbulda şirkətin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel və 1994-cü il sentyabrın 20-də Bakıda "Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" sazişə imza atan sabiq baş icraçı direktoru Lord Con Filip Braun iştirak ediblər.

*(ardı 7-ci səhifədə)*

## Ermənistan hərbi cinayətlərinin təzminatını ödəməyə məhkumdur

**Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 min azərbaycanlı həlak olub, 4 min 866 nəfər itkin düşüb, 100 min nəfər yaralanıb, 50 min nəfər isə müxtəlif dərəcəli xəsarətlər alaraq əlilə çevrilib.**



Respublikamızın çoxsaylı maddi-mədəni nümunələri, o cümlədən 44 dini məbəd, 18 məscid qəddarcasına dağıdılıb. İşğal altında qalan ərazilərdə 12 muzey və 6 şəkil qalereyası, tarixi əhəmiyyətli 9 saray yerlə bir edilib, 40 min tarixi-etnoqrafik əhəmiyyətə malik eksponat işğalçı ölkəyə daşınıb. 927 kitabxanada 4 milyon 600 min nüsxə kitab və xüsusi əhəmiyyətli əlyazma nümunələri yandırılıb.

*(ardı 8-ci səhifədə)*

# İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın telefon danışığı

**Sentyabrın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı lokal xarakterli antiterror tədbirlərinin başa çatması və Azərbaycanın Qarabağ bölgəsində olan qanunsuz silahlı birləşmələrin silahı yerə qoymaları və tərk-silah olmaları barədə fikir mübadiləsi aparılıb.

Dövlət başçıları Azərbaycan və Türkiyənin daim bir-birinin yanında olduqlarını vurğulayıblar.

Azərbaycan və Türkiyə prezidentləri qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən gələcək təmaslar və strateji müttəfiqlik əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

# İlham Əliyevin və Vladimir Putinin telefon danışığı

**Sentyabrın 21-də Azərbaycan tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.**

Prezident İlham Əliyev sentyabrın 20-də Qarabağda Rusiya sülhməramlı kontingentinin hərbi qulluqçularının faciəli şəkildə həlak olması ilə bağlı üzrxahlıq ifadə edib və dərin hüznlə başsağlığı verib. Başverənlərlə bağlı hərtərəfli araşdırma aparılacağı və bütün təqsirkarların layiqli cəzalarını alacağı vurğulanıb. Bununla bağlı hər iki ölkənin Baş prokurorluqları sıx əlaqədədir. Azərbaycan Prezidenti, həmçinin həlak olanların ailələrinə maddi yardım göstərilməsinə hazır olduğunu bildirib.

Tərəflər Qarabağda hərbi əməliyyatların tam dayandırılması ilə bağlı Rusiya sülhməramlı kontingentinin köməyi sayəsində əldə edilmiş razılaşmaların ardıcıl həyata keçirilməsinin vacibliyini qeyd ediblər. Bu kontekstdə sentyabrın 21-də Yevlax şəhərində Rusiya sülhməramlı kontingentinin iştirakı ilə Azərbaycanın dövlət strukturlarının nümayəndələri və Qarabağın erməni əhalisi arasında başlayan təmaslara böyük əhəmiyyət verilir.

Regionda vəziyyətin daha da sabitləşdirilməsi və humanitar problemlərin aradan qaldırılması üzrə prioritet addımlar müzakirə edilib. Vladimir Putin Qarabağın erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin təmin edilməsinin vacibliyini vurğulayıb. Azərbaycan tərəfinin Rusiya sülhməramlıları ilə bu məsələlər üzrə qarşılıqlı fəaliyyətə hazır olduğu təsdiqlənib.

2020-2022-ci illərdə yüksək səviyyədə əldə edilmiş məlum üçtərəfli razılaşmaların fonunda aparılan danışıqlar prosesində, ilk növbədə, nəqliyyat əlaqələrinin açılması, Azərbaycan–Ermənistan sərhədinin delimitasiyası və Bakı ilə İrəvan arasında sülh müqaviləsinin hazırlanması üzrə işlərin fəallaşdırılması razılaşdırılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan BMT TŞ-nin Qarabağ müzakirəsində haqlı mövqeyini qətiyyətlə müdafiə etdi

**(əvvəli 1-ci səhifədə)**




Ceyhun Bayramov bildirib ki, Azərbaycan ölkəmizin Qarabağ bölgəsinin yerli erməni sakinlərinə onların hüquq və azadlıqlarının Azərbaycanın Konstitusiyası və müvafiq beynəlxalq insan hüquqları mexanizmləri, o cümlədən milli azlıqlara mənsub şəxslər üçün nəzərdə tutulan mexanizmlərə uyğun şəkildə təmin edilməsinə dair zəmanət verilməsi istiqamətində qətiyyətli olduğunu bir daha təsdiqləyir.

Azərbaycanın müxtəlif etnik, dini və ya linqvistik azlıqları bir millət daxilində birləşdirməsinin qürurlu tarixi olduğunu vurğulayan nazir bildirib: "Etnik erməni sakinlər bizim sülhsevər birgəyaşayış modelimizin bir hissəsi olmağa dəvətlidir. Eyni zamanda, Azərbaycan, bütün dövlətlərin beynəlxalq hüquq çərçivəsində digər dövlətlərin daxili işlərinə qarışmamaq, milli azlıqlara mənsub şəxslərin inteqrasiyası istiqamətində göstərilən səylərə zərbə vurmamaq və qonşu dövlətlərin ərazisində separatizmi qızışdırmamaq barədə öhdəliyi olduğunu xatırladır. Azərbaycan, bölgədə sülh, sabitlik və rifahda səmimi marağı olan bütün beynəlxalq tərəfdaşlarla konstruktiv əlaqəyə açıqdır".

Ermənistanın Azərbaycan ərazisini işğal etməsi nəticəsində yaradılmış qondarma rejimin qurama "prezident seçkiləri" bəhanəsi ilə qanunsuz fəaliyyəti növbəti son dərəcə təxribatçı xarakterli addım idi. Ermənistan bu addımları ilə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınması ilə bağlı verdiyi əvvəlki bəyanatlarını mahiyyətcə heçə endirmək məqsədi güddüyünü açıq şəkildə ortaya qoydu. Bu, Ermənistanın sülh müqaviləsi üzrə danışıqları xoşməramla aparmadığını nümayiş etdirdi.

Nazir bildirib ki, Ermənistanın məqsədyönlü şəkildə sülh səylərini pozmaq cəhdləri, Azərbaycana qarşı qondarma "blokada" və "humanitar böhran" kimi uydurma ittihamlar əsasında bütün dünyada aparılan qarayaxma kampaniyası ilə eyni zamanda baş verirdi. 2023-cü il sentyabrın 18-də Azərbaycanın Qarabağ bölgəsinin erməni əsilli sakinlərinin ehtiyaclarını ödəmək üçün humanitar yüklərin çatdırılması məqsədilə bir neçə marşrutdan istifadə etməklə bağlı təklifinin həyata keçirilməsi ilə Ermənistanın qarayaxma kampaniyası mahiyyət etibarilə iflasa uğradı.

Antiterror tədbirləri Ermənistanın üçtərəfli Bəyanata əsasən, Azərbaycan əleyhinə bütün hərbi fəaliyyətlərin dayandırılması və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən qüvvələrini çıxarmaq barədə götürdüyü öhdəliklərin əksinə olaraq saxladığı silahlı hərbiləşmənin miqyasını nümayiş etdirib.

Sadəcə 24 saat ərzində qanunsuz birliklərin 90-dan artıq postunun ələ keçirildiyini, 20 döyüş maşını, 40 artilleriya qurğusu, 30 minaatan, 6 elektromaqnetik döyüş sistemləri və 2 hava hücumundan müdafiə sisteminin zərərsizləşdirildiyini bildirən nazir deyib: "Heç bir suveren dövlət öz ərazisində belə qanunsuz hərbi mövcudluğu qəbul edə bilməz. Azərbaycan da bunu edə bilməz. Azərbaycan özünün bütün sakinlərinin sağlamlığını və təhlükəsizliyini qorumaq məqsədilə beynəlxalq hüquq və öz Konstitusiyasından irəli gələn hüquqlarına tamamilə uyğun hərəkət etmişdir. Beləliklə, Ermənistanın Azərbaycanın suveren ərazisində qüvvədən qanunsuz istifadə etməklə yeni status-kvo yaratmaq və "təmas xətti məntiqi"nə əsaslanaraq boz zonanı saxlamaqla bağlı sistematik cəhdləri dəf edilmişdir".

Ermənistanın Təhlükəsizlik Şurasına müraciəti Azərbaycanın beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə özünün suveren ərazisində icra etdiyi lokal antiterror tədbirləri ilə əlaqədardır. Buna görə də Ermənistanın Təhlükəsizlik Şurasına növbəti müraciəti BMT Nizamnaməsinin dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət və onların daxili işlərinə qarışmamaq ilə bağlı tələblərinin açıq formada pozulmasıdır.

Təhlükəsizlik Şurasının növbəti dəfə belə məsuliyyətsiz şəkildə sui-istifadə edilməsinin tamamilə qəbuledilməzliyini, bu mötəbər orqanın nüfuzuna və etibarına ciddi zərbə olduğunu və tamamilə rədd edilməsinin vacibliyini vurğulayan Azərbaycanın xarici işlər naziri bildirib: "Bu, həmçinin səmərəsiz və əhəmiyyətsizdir. Əslində bu gün Şura Azərbaycanın Qarabağ regionunun erməni əsilli sakinlərinin hüquq və təhlükəsizliyinə dair iddia edilən narahatlıqlar ilə əlaqədar müzakirələr üçün çağırılanda ərazidə antiterror tədbirləri dayandırılmış və bununla da Azərbaycanın Qarabağ regionunun erməni əsilli sakinlərinin praktiki olaraq reinteqrasiyasına imkan yaranmışdır".

***XQ***

# Xarici işlər nazirinin BMT-də görüşləri

**Xarici işlər naziri Ceyhun Bayramov Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsində iştirakı çərçivəsində bir sıra önəmli görüşlər keçirib.**

Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Faysal bin Farhan Al Saud ilə görüş zamanı tərəflər siyasi, iqtisadi, enerji təhlükəsizliyi, humanitar və ikitərəfli əməkdaşlığın gündəliyində duran bir sıra digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıblar və qarşılıqlı yüksək səviyyəli səfərlərin həyata keçirilməsinin vacibliyini vurğulayıblar.

Nazir Ceyhun Bayramov regionda baş verən son proseslər ilə bağlı məlumat verərək, sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda qondarma rejimin nümayəndələrinin bir sıra genişmiqyaslı hərbi təxribatlara və terror hücumlarına əl atdığı və bu təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin qalıqlarının ərazilərimizdən çıxarılması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinin həyata keçirildiyini diqqətə çatdırıb.

Görülən tədbirlərin hədəfinin müstəsna olaraq bölgədə sülh və təhlükəsizliyə əsas təhdid mənbəyi olan qanunsuz hərbi birləşmələr və hərbi infrastrukturlar olduğu diqqətə çatdırılıb.

Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***

**Xarici işlər naziri Ceyhun Bayramov Finlandiyanın xarici və Avropa işləri naziri Elina Valtonen ilə görüşündə həmkarını regiondakı son vəziyyət və Azərbaycan tərəfindən başladılan lokal antiterror tədbirləri barəsində məlumatlandırıb.**

Bu tədbirləri şərtləndirən amilləri diqqətə çatdıran nazir beynəlxalq hüquqa və 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın dördüncü paraqrafını kobud şəkildə pozmaqla Ermənistanın öz silahlı qüvvələrini Azərbaycan ərazisindən tam çıxarmamasının, bütün mümkün siyasi, hərbi, maliyyə və ideoloji vasitələrlə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı separatçılığı dəstəkləməkdə və təşviq etməkdə davam etməsinin regionda gərginliyin əsas səbəbi olduğunu bildirib.

Silahlı qüvvələr tərəfindən həyata keçirilən lokal antiterror tədbirlərinin müstəsna olaraq legitim hərbi hədəflərə qarşı aparıldığı, Ermənistanın qanunsuz hərbi infrastrukturunu zərərsizləşdirmək məqsədi güddüyü qeyd edilib. C.Bayramov vurğulayıb ki, bu tədbirlərin gedişində mülki şəxslərin və mülki infrastruktura zərər dəyməməsi üçün bütün işlər görülüb.

Nazir antiterror tədbirləri nəticəsində erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılması tədbirlərinin və erməni sakinlərin Azərbaycanın konstitusion quruluşu çərçivəsində reinteqrasiyası tədbirlərinin Ermənistanla sülh prosesinə də müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.

***

**Ceyhun Bayramov Ərəb Dövlətləri Liqasının (ƏDL) Baş katibi Əhməd Əbul Qeyt ilə də görüşüb.**

Söhbətdə Azərbaycanın ƏDL çərçivəsində, habelə individual əsasda ərəb ölkələri ilə əməkdaşlıq məsələləri, habelə bölgədə cari vəziyyət müzakirə olunub. Ceyhun Bayramov, tarixi və mədəni baxımından bir çox oxşar xüsusiyyətlərimizin olduğu ərəb dünyası ölkələri ilə, o cümlədən ƏDL çərçivəsində əməkdaşlığa verdiyimiz əhəmiyyətdən bəhs edərək, bu istiqamətdə bir çox sahələr, o cümlədən iqtisadiyyat, investisiyalar, kənd təsərrüfatı, bağlantılar və s. sahələr üzrə əməkdaşlığın perspektivlərinin mövcud olduğunu diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov regionda təhlükəsizliyə ən böyük hədələrdən biri olan ərazilərimizdə qeyri-qanuni erməni silahlı qüvvələrinin mövcudluğuna tərəfimizdən aparılan antiterror tədbirləri nəticəsində son qoyulduğunu bildirib. Ərazi bütövlüyümüz və suverenliyimizə hədə olan bu təhlükənin, eyni zamanda Qarabağ bölgəsində yaşayan erməniəsilli sakinlər ilə reinteqrasiya prosesinin irəlilədilməsinə də ciddi maneə törətdiyi diqqətə çatdırılıb.

Baş katib Əhməd Əbul Qeyt, ötən il Qlobal Bakı Forumu çərçivəsində ölkəmizə səfərini və dövlət başçımızla keçirdiyi görüşü xatırlayaraq, bu kimi təmasların münasibətlərin inkişaf perspektivlərinin müzakirəsində əhəmiyyət kəsb etdiyini söyləyib. Azərbaycanın bölgədə sülh və quruculuq səylərinin təqdirəlayiq olduğu, bu xüsusda regionda dayanıqlı sülh quruculuğu sahəsində işlərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Yevlax görüşü konstruktiv və müsbət mühitdə keçib



**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda, qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər.

Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılır.

Tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib.

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyası***

# İqtisadi Şuranın növbəti iclası

**İqtisadi Şuranın vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklərə həsr edilmiş iclası keçirilib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, sentyabrın 20-də keçirilən iclasda 2024-cü ilin büdcə-vergi siyasəti çərçivəsində hazırlanmış vergi və gömrük sahəsində güzəşt və azadolmaların qiymətləndirilməsi, onun nəticələrinə əsasən vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklər, eləcə də Vergi Məcəlləsinə edilən dəyişiklik layihəsinə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviqi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin, vergi inzibatçılığı tədbirlərinin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi üzrə dəyişiklikləri əhatə edən istiqamətlər və digər məsələlər geniş müzakirə olunub.

İclasda maliyyə naziri Samir Şərifovun və iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzələri dinlənilib.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklər barədə aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***XQ***

# Ceyhun Bayramov Baydenlə görüşdü

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsi**



**çərçivəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Co Bayden tərəfindən təşkil olunan rəsmi qəbulda iştirak edib.**

***XQ***

# Baş Prokurorluq sülhməramlıların həlak olması ilə bağlı istintaq aparır

**Bu il sentyabrın 20-də Azərbaycan Respublikasının Tərtər rayonunun Canyataq kəndi ərazisində lokal xarakterli antiterror tədbirlərində iştirak edən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu tərəfindən mürəkkəb relyef və dumanlı-yağışlı hava şəraiti səbəbindən qanunsuz erməni silahlı birləşmələrinə məxsus olduğu zənn edilərək Rusiya Federasiyasının sülhməramlı kontingentinin həmin əraziyə dislokasiya olunmuş hərbi qulluqçularının olduğu avtomobil odlu silahlarla atəşə tutulub. Hadisə nəticəsində RSK-nın beş hərbi qulluqçusu həlak olub.**

Bundan başqa, həmin gün qeyd olunan yaşayış məntəqəsinin ərazisində RSK-ya məxsus "Kamaz" markalı avtomobil qanunsuz erməni silahlı birləşmələrinin naməlum üzvləri tərəfindən odlu silahlarla atəşə tutulub. Hadisə nəticəsində RSK-nın 1 əsgəri ölüb, 1 nəfər hərbi qulluqçu isə yaralanıb.

Hər iki faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə olunub.

Dünən Azərbaycan və Rusiyanın baş prokurorları telefonla danışıblar. Hadisə ilə bağlı Rusiya tərəfinə dərin hüznlə başsağlığı verilib. Tərəflər baş vermiş cinayət hadisəsi ilə bağlı hərtərəfli və sıx təmasda olmaqla araşdırmanın aparılacağı barədə razılığa gəliblər. Hazırda cinayət işi üzrə prokurorluq orqanları tərəfindən istintaq və əməliyyat tədbirləri həyata keçirilir.

***XQ***

# İlham Əliyevin böyüklüyü və dünyaya çağırış ruhu – tam suverenlik, Cənubi Qafqazda sülh, Ermənistana şans

## Dövlət başçımızın Azərbaycan xalqına müraciətində bildirdikləri region üçün yeni inkişaf mərhələsinin mühüm anonsudur

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidenti müraciətində lokal xarakterli antiterror tədbirləri zamanı həlak olmuş Vətən övladlarının xatirəsini də yüksək qədirbilənliklə yad edir. Bu məqamın üzərində dayanmağa ehtiyac var. Çünki dövlətimizin başçısının bütün fikirləri reallıqla ciddi fiksasiya təbiətinə malikdir. Lokal xarakterli antiterror tədbirlərinədək mövcud olan bir reallığa da diqqət çəkərək bildirək ki, Vətən uğrunda canını fəda etmiş şəxslər torpaqlarımızın azadlığı naminə şəhid olmuşlar. Cənab İlham Əliyev müraciətində bu barədə demişdir: "Allah bütün şəhidlərimizə rəhmət eləsin! Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin! Onlar Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etmişlər. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır".

***

Bəli, lokal xarakterli antiterror tədbirlərinin başlıca hədəfi suverenliyimizin tam bərpası idi. Nəzərə alaq ki, əvvəldə haqqında söz açdığımız mina terroru da məhz bunun nəticəsi idi. Artıq Xankəndi, Ağdərəli, Əsgəranlı, Xocalılı, Xocavəndli Azərbaycanda yaşayırıq. Uca Tanrı bu xoşbəxt günü bizə nəsib edib. Bu xoşbəxt günə Prezident İlham Əliyevin qətiyyəti və prinsipiallığı ilə çatdıq. Mövcud səbəbdəndir ki, dövlət başçımız xalqa müraciətində ölkəmizin lokal xarakterli antiterror tədbirləri ilə bağlı qətiyyətli mövqeyini bir daha ortaya qoyur. Axı, Azərbaycan ictimaiyyəti 23 saat 43 dəqiqə ərzində Ermənistanın və xaricdəki havadarlarının ölkəmiz əleyhinə yağdırdıqları hədyan dolu fikirlərə sinə gərdi. Daha doğrusu, onların anti-Azərbaycan baxışlarına bir daha şahidlik etdi. Onu da nəzərə alaq ki, onların 44 günlük Vətən müharibəsi dönəmindəki həyasızlıqları yaddan çıxmayıb. Amma necə ki, o vaxt bütün cəhdləri faydasız olmuşdu, yenə eyni aqibətlə üzləşdilər.

O da məlumdur ki, ermənipərəstlər dünya güclərini Azərbaycana qarşı qaldırmaq yolu tuturlar. Hərəkətləri ilə onların baxışlarına təsir göstərməyə çalışırlar. Ümumən, dünya erməniliyi bu "ampluada" xeyli təşkilatlanmış struktura malikdir. Müxtəlif ölkələrin liderlərinin Azərbaycan Prezidentinə telefon zənglərini də, saxta sülh çağırışlarını da müəyyən mənada həmin "ampluadan" irəli gələn "fəaliyyətin" nəticəsi kimi qiymətləndirmək mümkündür. Bütün bunların qarşısında duruş gətirmək isə adi məsələ deyil. Cənab İlham Əliyev xalqımız üçün həm də bu duruşun, direnişin rəmzidir. Ona görə də onun xalqa müraciətindəki aşağıdakı fikirlərə, sözün əsl mənasında, öyünməyə dəyər: "Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda, bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir".

Bəli, hərbçilərimizin Ali Baş Komandanın cəsarətindən, prinsipiallıq və qətiyyətindən nəşət alan qəhrəmanlığı və rəşadətini görən, sona qədər gedəcəyimizi bilən separatçılar təslim olmaq məcburiyyətində qaldılar. Onlar Ermənistanın bayrağına bənzər əski parçalarını ağ bayrağa dəyişməkdən başqa çıxış yollarının qalmadığına əmin oldular. Əmin oldular və ölkəmizin şərtlərini qəbul etməyə, tərksilaha, bölgəni tərk etməyə razılaşdılar. Ən əsası isə Yevlaxa ölkəmizin nümayəndələri ilə görüşə gəlmək niyyətlərini açıqladılar. Halbuki, indiyədək bundan boyun qaçırırdılar. Necə deyərlər, özlərini qaldırıb dağın başına qoyurdular. Azərbaycan Prezidentinin xəbərdarlıqlarından nəticə çıxarmırdılar.

Xəbərdarlıqdan söz düşmüşkən, dövlətimizin başçısı sonuncu xəbərdarlığını bu il mayın 28-də Laçın sakinləri ilə görüşündə kifayət qədər açıq və sərt tərzdə ifadə etmişdi: "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə bir həlli İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz saxta "dövlət atributları"nı zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya, orada "parlament" fəaliyyət göstərir, guya, orada prezident var, guya, nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər".

***

Bəli, Ermənistan rəhbərliyi, separatçı rejim xəbərdarlıqları heçə sayırdı. Ümumən, onlar illərlə edilmiş xəbərdarlıqlardan, çağırışlardan nəticə çıxarmırdılar. Baxın, 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyi gerçəkləşdi, əvvəlki xuntanın yerini özlərini demokrat kimi qələmə verən şəxslər tutdu. Amma gördük ki, mənfur kurs dəyişmədi. Əksinə, daha da azğınlaşma getdi. "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı eşidildi, Cəbrayıla yol çəkmək istənildi, müqəddəs Şuşamızda, Cıdır düzündə "yall" getdilər. Bir sözlə, "torpağı tutmuşuq, bizimdir. Vəssalam!" ritorikası kimi sərsəmlik ortaya atıldı. Bu sərsəmliyə ən son nöqtə sentyabrın 20-də qoyuldu. Bu yerdə Azərbaycan Prezidenti çox haqlı olaraq soruşur: "Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi?"

Əlbəttə, xeyir gətirmədi və bu barədə Ermənistan rəhbərliyi, ümumən erməni cəmiyyəti düşünməlidir. Ölkənin tipik erməni xəstəliyinə yoluxmuş ziyalı industriyası indiyədək düşünməyib, heç olmasa, bundan sonra düz yola gəlməyin vacibliyini anlamalıdır. Düşmənçilik, ədavət səhifəsini bağlamaq, qeyri-insani təsəvvürlərdən, xam xəyallardan uzaq durmaq üçün özündə cəsarət tapmalıdır. Bütövlükdə, ermənilər anlamalıdırlar ki, azərbaycanlılardan, türklərdən düşmən obrazı uydurmaları və həmin obraza qarşı mübarizə zəminində böyümək istəmələri avantürizmdən başqa bir şey deyil. Yəni, belə böyümək, güclənmək olmur. Başqalarının torpağına göz dikmək yolverilməzdir, qonşularla doğru-düzgün keçinmək şərtdir.

***

Tarix ibrətdir, – deyirlər. Bir vaxtlar azərbaycanlıları Yevlaxa qədər qovmaqdan danışırdılar. Dünən Yevlaxa dialoq üçün gəldilər. Bu durum heç bir millət üçün arzuolunan hal deyil. Digər tərəfdən, antiterror tədbirləri başlanında Ermənistan baş naziri Nikol Paşinyan bəyan etdi ki, ölkəsi münaqişəyə girməyəcək. Əlbəttə, o, siyasi baxımdan doğru qərar verdi.

Fikrimiz heç də bu məqamları qabartdıb Ermənistanı, yaxud erməni xalqını alçaltmaq deyil. Erməni millətçiliyinin qəddar, qaniçən simasını canlandırmaq niyyətindən də uzağıq. Buna heç ehtiyac da yoxdur. Sadəcə, sərt reallıqlar var. Sözümüz və istəyimiz ondadır ki, həmin reallıqlar düşünülsün. Axı, düşünülməsi bizə də sərfəlidir.

Halbuki, tam fərqli durum ola bilərdi. Bölgəmiz "Qafqazın Benilüksü"nə çevrilmək şanslarını təxirə salmazdı. Ona görə Azərbaycan Prezidenti bildirir: "Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil – Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar".

Bəli, bu gün bütün olanlara baxmayaraq, Prezident İlham Əliyev böyüklük göstərərək bir daha Ermənistana, Qarabağ ermənilərinə əlini uzadır. Onları "Qafqaz evi" ideyası ətrafında sıx birləşməyə çağırır. Bu, müstəsna nəciblik, humanizm nümunəsidir. Bu, yaşadığımız coğrafiyanı inkişafa daşımaq əzminin göstəricisidir. Azərbaycanın lideri təklif edir ki, Cənubi Qafqaz müharibəsiz, münaqişəsiz məkan olsun. Bu məkanda yaşayanlar özlərində mənfi təmayüllərə - ekstremizmə, millətçiliyə, şovinizmə qarşı immunitet, müqavimət hissi formalaşdırsınlar, xarici faktorlar üçün siyasi alətə çevrilməsinlər.

Dövlətimizin başçısı xalqa müraciətində gələcək inkişaf üçün təminatlar da verir. Sözü imzası qədər dəyərli olan cənab İlham Əliyev Qarabağ ermənilərini bu təminatın əməli iş müstəvisinə şahidliyə, durumdan faydalanmağa çağıracaq qədər böyük liderdir. "Biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq. Biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq, görün, nə qədər böyük işlər görürük, cəmi iki il ərzində. O bölgədə bəlkə də 30 il ərzində heç 1 faiz də iş görülməyib – elektrik stansiyaları, körpülər, tunellər, su anbarları, yaşayış binaları, kəndlər, şəhərlər qurulur. Cəmi iki il ərzində. Heç bir yardım almadan, özümüz. İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu, bizim əlimizdədir. Ona görə bizim təklifimiz budur və bu gün dönüş nöqtəsi idi", - deyən ölkəmizin rəhbəri bu dönüş nöqtəsinin Azərbaycan-Ermənistan sülh prosesinə müsbət təsir göstərəcəyinə ümidvar olduğunu açıqlayır.

Ermənistan Azərbaycana münasibətdə konstruktiv davranmalı, yola gətməyi bacarmalıdır. Birincisi, Prezident İlham Əliyev bu prosesin müsbət tərəflərindən, dividendlərindən söz açır, ikincisi isə Azərbaycan hər ötən gün daha da qüdrətli olur. Ermənistan və havadarları anlamalıdırlar ki, nə qədər güclənsələr də, ən azı təbii potensial, insan resursları baxımından, ölkəmizdən həmişə geri qalacaqlar. Yəni, gücü şərtləndirən sadə amillər belə hər zaman bizim tərəfimizdədir. Güc isə özü ilə hesablaşılmasını qaçılmaza çevirən faktordur. Elə dövlətimizin başçısının vurğuladığı da məhz budur: "Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"

***

Sonda ümumiləşdirmə apararaq belə nəticəyə gəlmək mümkündür ki, Prezident İlham Əliyevin Azərbaycan xalqına 20 sentyabr 2023-cü il tarixli müraciəti həm də erməni xalqına ünvanlanmış, kifayət qədər, əhatəli məzmuna malik manifest idi. Çünki müraciət onlara çağırış ruhludur. Yazımızı nikbin notlarla bitirmək üçün dövlətimizin başçısının müdrik düşüncələri ilə məsələyə yenidən qayıdaq və fikrimizi tamamlayaq: "Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil - Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar".

*Əvəz CAHANGİROĞLU*
**XQ**





# Qarabağın erməni icmasının nümayəndələri Yevlaxda

**Sentyabrın 21-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti ilə Yevlax şəhərində Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə görüş keçirilib.**

Azərbaycanın mərkəzi hakimiyyətini görüşdə Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev və xüsusi nümayəndəliyin əməkdaşı İlkin Sultanov təmsil ediblər.

Qarabağın erməni sakinlərini isə Sergey Martirosyan və David Melkumyan təmsil ediblər. Rusiya sülhməramlı kontingentinin nümayəndəsi iştirakçı kimi görüşə qatılıb.

Görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında reinteqrasiya məsələləri müzakirə edilib.

Qarabağın erməni icmasının nümayəndələri Yevlax görüşündən sonra rayonu tərk ediblər.

Qeyd edək ki, Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirləri separatçıların təslim olması ilə nəticələndi. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və 2023-cü il sentyabrın 20-də saat 13:00-da lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının təklif etdiyi kimi, Qarabağın erməni sakinlərinin nümayəndələri ilə 2023-cü il sentyabrın 21-də Yevlaxda görüş təyin edildi.

Xatırladaq ki, əldə edilən razılaşmaya əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahları yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilməsi şəkildə həyata keçirilməsi təmin edilir.

**XQ**

MİLLİ MƏCLİSDƏ

# Azərbaycanın Asiya Parlament Assambleyasına sədrliyə namizədliyi irəli sürülüb




**Dünən Milli Məclisdə Asiya Parlament Assambleyasının (APA) Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclası keçirilib. Açılış mərasimində qurumun baş katibi Muhammed Reza Məcidi Asiya qitəsində həmrəylik, əməkdaşlıq və parlament diplomatiyasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikasının 2024-2025-ci illər üçün Asiya Parlament Assambleyasının sədrliyinə namizədliyini rəsmən irəli sürdüyü barədə məlumat verib. O, Asiya Parlament Assambleyası bütün üzv dövlətlərinə müraciət edərək hər birindən Azərbaycanın sədrliyinə öz dəstəyini verməsini xahiş edib.**

Tədbirdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizin bu təşkilata sədr seçiləcəyi təqdirdə, APA-nın institusional strukturunun təkmilləşdirilməsi və digər parlamentlərarası qurumlarla əməkdaşlığının genişləndirilməsi məsələlərinə xüsusi önəm verəcəyini qeyd edib və iştirakçı ölkələrin bu sahədə respublikamıza dəstək olacaqlarına ümidvar olduğunu bildirib. O, həmçinin Azərbaycan Milli Məclisinin parlament diplomatiyası vasitəsilə Asiya dövlətlərinin parlamentləri ilə ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsinə mühüm əhəmiyyət verdiyini, qanunverici orqanımızın bu istiqamətdə xeyli səy göstərdiyini də diqqətə çatdırıb.

Sahibə Qafarova sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin bir sıra irimiqyaslı hərbi təxribatlara və terror aktlarına əl atdığını və buna cavab olaraq, ölkəmizin regionda lokal antiterror tədbirlərinə başladığı barədə də məlumat verib. Onun sözlərinə görə, bu tədbirlərin məqsədi Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan ərazilərindən tərksilah edilərək çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpası olmuşdur. S.Qafarova, həmçinin ötən gün Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin müraciətinə baxılaraq qeyd olunan şərtlər əsasında lokal antiterror əməliyyatlarının dayandırılması barədə razılıq əldə olunduğunu da diqqətə çatdırıb.

S. Qafarova erməni sakinlərin nümayəndələri ilə dünən keçirilən müzakirələrin onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə nəticələnəcəyinə, öz növbəsində, Ermənistanın da normallaşma prosesi çərçivəsində məsuliyyətli davranacağına və regionumuzda uzunmüddətli sülhü və sabitliyi təmin edəcək sülh sazişini imzalayacağına ümidvar olduğunu bildirib. O, Azərbaycanın güclü iradəsinə və uzunmüddətli sülh və sabitlik istiqamətində atdığı ardıcıl addımlara baxmayaraq, Ermənistanın bunun əksinə hərəkət etdiyini xatırladıb. Deyib ki, razılaşmalardan geri çəkilmək və yeni bəhanələr irəli sürmək, real danışıqlardan qaçmaq, hərbi-siyasi təxribatlar törətmək, ərazilərimizdə yaradılmış qanunsuz separatçı rejimi bütün mümkün vasitələrlə ayaqda saxlamaq cəhdləri Ermənistanın son iki il yarım ərzində dəyişməyən davranışlarıdır.

Milli Məclisin Sədri əlavə edib ki, ölkəmiz dəfələrlə Ermənistanın 10 mindən çox silahlı əsgərinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tam çıxarılmasını və qondarma rejimin ləğvini tələb edib, bunun regionda sülhə və sabitliyə nail olmaq üçün vacib şərt olduğunu bildirib.

**Ə.BƏDƏLOV**
**XQ**

MÜDAFİƏ NAZİRLİYİNİN MƏLUMATI



## Türkiyə bu gün də Azərbaycanın yanındadır

**Sentyabrın 21-də Türkiyənin milli müdafiə naziri Yaşar Güler Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənova zəng edib.**

Türkiyəli nazir antiterror tədbirlərinin uğurla başa çatması münasibətilə Azərbaycanın müdafiə nazirini təbrik edib, Türkiyənin həmişəki kimi Azərbaycanın yanında olduğunu qeyd edib.

General-polkovnik Z.Həsənov Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı qısa müddət ərzində bütün istiqamətlər üzrə əldə edilən hərbi uğurlardan danışıb.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

***

Azərbaycanın suveren ərazilərində zəruri hesab etdiyi tədbirləri görmək, Ermənistan silahlı qüvvələrinin qanunsuz birləşmələrinin uzun müddətdir davam edən hücum və təxribatlarının qarşısını almaq üçün sentyabrın 19-da Qarabağda başlatdığı antiterror tədbirləri nəticəsində qəbul olunan qərarı və bölgədəki son hadisələri yaxından izləyirik. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin həftəlik brifinqində bildirilib.

"Can Azərbaycanın ərazi bütövlüyünü qoruması üçün atdığı addımları, Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar olması istiqamətində səmimi cəhdləri dəstəklədiyimizi, "bir millət, iki dövlət" düşüncəsi ilə kədərdə və sevincdə də bir olduğumuz azərbaycanlı qardaşlarımızın haqlı mübarizəsində yanlarında olmaqda davam edəcəyimizi bir daha vurğulayırıq", - deyə Türkiyə Milli Müdafiə Nazirliyinin açıqlamasında qeyd olunub.

## Qarabağ bölgəsində minalar zərərsizləşdirilir



**Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən ərazinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə fəaliyyətlər icra edilir.**

Ermənistan silahlı qüvvələrinin birləşmələri Kəlbəcər rayonunun Çərəktar kəndinin cənubunda Vətən müharibəsindən sonra müdafiə xətti quraraq bu istiqamətdə xeyli sayda mina basdırıb.

Sentyabrın 21-də qeyd olunan istiqamətdə Ermənistanda istehsal edilmiş xeyli sayda piyada və tank əleyhinə mina təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

## Qozlukörpüdə sursat anbarı aşkarlanıb

**Kəlbəcər rayonunun Qozlukörpü yaşayış məntəqəsi ərazisində sursat anbarı aşkarlanıb.**



Yaşayış məntəqəsi ərazisində yerləşən fermanın tikililəri uzun müddət sursat anbarı məqsədilə istifadə edilib. Burada raket, artilleriya mərmiləri, minalar və müxtəlif çaplı döyüş sursatları mövcud olub.

Qeyd olunan sursatların təcili tibbi yardım maşını ilə fermanın ərazisinə daşındığı da müəyyən edilib.

## Azərbaycanın HDQ komandanı ABŞ-da

**Amerika Birləşmiş Ştatlarının Nyuport şəhərində 25-ci Beynəlxalq Dəniz Gücü Simpoziumu keçirilir. Simpoziumda 90 ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanları ilə yanaşı, müxtəlif mühüm dəniz təşkilatlarının nümayəndələri də iştirak edir.**



Simpozium çərçivəsində Azərbaycan HDQ komandanı vitse-admiral Sübhan Bəkirov Türkiyə Respublikasının HDQ komandanı donanma admiralı Ercümənt Tatlıoğlu və Amerika Birləşmiş Ştatlarının HDQ komandanı admiral Liza Franketti ilə görüşüb.

Görüşlərdə Azərbaycan-Türkiyə və Azərbaycan-ABŞ HDQ arasında hərbi, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

**XQ**

KÖŞƏ

# Salam Xankəndi, ruhun şad olsun, Pənahəli xan!

## Hərbi uğurlarımızın təməlində Ali Baş Komandanın qətiyyəti durur

**Ölkəmizin və regionun hansı kütləvi informasiya vasitəsinə baxsan, hamı dünənədək od püskürən, Azərbaycan dövlətinə qarşı hədələrlə, təhdidlərlə danışan separatçıların əsgərlərimizin qarşısında cəmi 24 saatadək (sutka tam olmadı) duruş gətirə bilməməsindən yazır və ya danışır. Fransanın hərtərəfli yardım, Rusiyanın bəzi siyasi dairələrinin "Ruben"lər, İranın yanacaq, ərzaq və digər müəmmalı yüklər, Avropanın bəzi ölkələrinin təqaüdçülərdən ibarət şübhəli missiyalar göndərdiyi "o boyda Artsax" (?) niyə belə bir gün bir gecə ayaq üstə dura bilmədi?**



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Çünki onların himayədarı adını çəkdiyimiz siyasi mərkəzlər idisə, Azərbaycanın himayədarı da Ulu Tanrı idi. Biz haqlı idik, beynəlxalq hüquq bizim tərəfimizdə idi. Onlara Hindistandan 60-cı illərin, İrandan 70-ci illərin, Fransadan 80-ci illərin silahları göndərilirdisə, Azərbaycan Ordusu ən müasir, elmi-texniki ixtiraların sonuncu nailiyyətləri ilə təkmilləşdirilmiş silahlarla təchiz edilmişdi.

Xankəndidəki oyuncaq dövlətin "köməyinə gələnlər"in əsas məqsədi ölkəmizin həmin ərazilərindəki təbii sərvətlərin talan edilməsi idisə, Azərbaycan Ordusunun məqsədi müqəddəs torpaqlarımızı düşmən tapdağından təmizləmək idi. Onların taktiki və strateji planlarını hansısa çirkin fəaliyyətinə görə gözdən düşmüş əleyri biznesmen – Ruben Vardanyan işləyib hazırlayırdısa, bizim planlarımızın müəllifi müasir dünyanın ən tanınmış liderlərindən olan, Avrasiya diplomatiya tarixinə özünəməxsus səhifələr yazan, 2016-cı ilin Aprel döyüşlərinin və 2020-ci ildəki İkinci Qarabağ müharibəsinin bütün planlarını hazırlayan və hamısında uğurlar qazanan böyük sərkərdə İlham Əliyev idi.

Bədbəxt "Artsax" bu boyda fərqin qarşısında necə dayana bilərdi? Dayana bilmədilər.

... İllər sürətlə keçdi, düşmən öz havadarlarının köməyi ilə çox fürsətləri əlimizdən aldı, üstəlik də, yaşa doldum və otuz il əvvəl radio dinləyicilərinə verdiyim vədlərin ikisini yerinə yetirə bilmədim. Radio rəhbərliyinin mənə olan inamına güvənərək otuz il əvvəl bir verilişdə dinləyicilərə söz vermişdim ki, Qələbə xəbərini efirdən mən səsləndirəcəyəm. Alınmadı. "İnşallah, sizin üçün Şuşadan, Xankəndidən reportajlar hazırlayacağam" - demişdim, yaş imkan vermədi.

Amma hələ bir şansım var. Xankəndi Pedaqoji İnstitutu filologiya fakültəsinin məzunu, şair Ələmdar Quluzadə ilə eyni şöbədə çalışdığım illərdə ondan belə bir ümidli xəyal eşitmişdim: "Torpaqlarımız azad edilərsə, doğulub böyüdüyüm Xocalını ziyarət etdikdən dərhal sonra Xankəndiyə gedəcək, ömrümün ən gözəl illərini keçirdiyim institutumuzun hansısa bir otağında – həmin auditoriyaların hamısı mənə doğmadır – gec gəldiyimə görə divarlardan, pəncərələrdən, qapıdan üzr istəyəcək və nə deyəcəyimi bilməyəcəm". Onda Ələmdara demişdim ki, get həmin siniflərdən birində ağla, gəl, mən də səninlə həmin vüsal barədə geniş söhbət yazım.

Ali Baş Komandanımızın işləyib hazırladığı mükəmməl planlar, ordumuzun maddi-texniki bazasının ən müasir səviyyədə təchiz edilməsi və şəxsi heyətin peşəkarlığı nəticəsində biz düşmən işğalında olan bütün ərazilərimizin azad edilməsinə nail olduq və Ələmdar Quluzadənin Xankəndiyə gedəcəyi yol da açıldı, mənim üç vədimdən birini yetirmək imkanım da yarandı. Allaha şükürlər olsun!

44 günlük İkinci Qarabağ müharibəsi haqqında yazan tarixçilər Azərbaycan Ordusunun müasir hərb tarixinə bir çox yeniliklər gətirdiyini, dünyanın aparıcı ali hərbi məktəblərində bu döyüşlərin taktiki və strateji üstünlüklərinin tədris edildiyini xatırladırlar. Mən isə Azərbaycan Ordusunun bu il sentyabrın 19-da günorta vaxtı başlayıb, ertəsi günü günorta saatlarında başa çatan lokal xarakterli antiterror tədbirlərini "ən qısa müharibə" kimi qələmə vermək istəyirdim. Bu məqsədlə bir ekspertlə də məsləhətləşdim.

Ekspert dedi, elə yazma. Əvvəla, sentyabrın 19-da başlanan hərbi eskalasiya müharibə deyildi. Müharibə müxtəlif ölkələr arasında olur. Azərbaycan isə öz ərazisində dövlət qanunlarına əməl etməyən separatçı dəstələrə qarşı lokal xarakterli antiterror tədbirləri keçirib. İkincisi, ən qısa müharibə 1896-cı il avqustun 27-də İngiltərə ilə Zənzibar arasında başlamış və cəmi 38 dəqiqə davam etmişdi. Tarixçilər həmin müharibəni dünyanın ən qısa müharibəsi də adlandırırlar. 38 dəqiqə ərzində bir ingilis dənizçisi və 500 zəngibarlı öldürülmüşdü...

İndi mətbuatın gündəliyində xeyli yeni məsələlər var. Biri xatırladır ki, Prezident İlham Əliyev hələ 44 günlük müharibədən sonra ermənilərə bildirmişdi ki, biz qarşıya qoyduğumuz bütün hədəflərə nail oluruq. Ona görə də ağıllı başla düşünün. Düşmədilər. Biri dövlət başçımızın "Nəyi, nə vaxt, necə etmək lazım olduğunu mən bilirəm" – qətiyyətini yada salır. Separatçılar həmin həqiqəti də nəzərə almadılar.

Biri isə dedi ki, separatçı hərbi xunta rejiminin cəmi bir gün ərzində ağ bayraq qaldırması, təslim olması həm də Silahlı Qüvvələrimizin qüdrətinin, peşəkarlığının, yüksək döyüş ruhunun əyani göstəricisidir. "Bu, bir daha göstərdi ki, Prezident İlham Əliyev Vətən müharibəsindən dərhal sonra ordu quruculuğunda islahatlar aparmaqla, Azərbaycan Silahlı Qüvvələrinin Türkiyə ordusu modelinə uyğunlaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərlə, yeni hərbi birliklər yaratmaqla, ordumuzun müasir silah-sursatla təchiz olunması ilə necə müdrik qərarlar qəbul edib".

... Son günlər Xankəndi ilə bağlı çoxlu videomateriallara, fotolara baxdım. Hərbçilərimizin peşəkarlığı qürurvericidir. Ancaq bir foto məni hədsiz dərəcədə duyğulandırdı. Xankəndinin tamamilə boşalmış mərkəzi meydanında, tam ortada dayanmış 20-25 yaşlı erməni qadın bir əlində üç-dörd aylıq körpəsini, digər əlində isə kiçik bir Azərbaycan bayrağını tutmuşdu. Onun gənc və yaraşıqlı simasından dünyanın ən ağır yükünü çəkən Anteyin iztirabları oxunurdu. O, hətta, Azərbaycan bayrağına hörməti olmadan, təkcə yavrusunu vəziyyətdən salamat çıxartmaq üçün bu addımı atmışdısa da, yenə də alqışlanmalıdır. Mən bu məqamda Azərbaycan əsgəri, zabitləri, komandanlıq heyəti qarşısında baş əyirəm. Sağ olun, əzizlərim! Sağ olun ki, körpələrə, sizdən aman gözləyənlərə aman verdiniz! Heç bir mülki insanı zərərdidə etmədiniz. Allah həmişə sizi qoruyacaq! İnşallah!

# Erməni qadına yardım göstərilib

**Sentyabrın 21-də Xocavənd rayonu ərazisində yaralı erməni qadın Azərbaycan Ordusunun hərbi qulluqçularına yaxınlaşaraq onlardan yardım istəyib.**

Hərbi qulluqçularımız dərhal yaralı qadına ilkin tibbi yardım göstərərək onu yaxınlıqdakı hərbi hospitala təxliyə edib.

Peşəkar hərbi həkimlərimiz tərəfindən erməni əsilli sakin cərrahi əməliyyat olunub. Hazırda vəziyyəti yaxşıdır.

**XQ**



# Azərbaycan Prezidentinin xalqa müraciəti dünya mətbuatında

**Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 20-də xalqa müraciəti dünyanın bir sıra ölkələrinin mətbuatında geniş işıqlandırılıb.**

Qardaş Türkiyənin nüfuzlu "A Haber", "TRT Haber", "CNN Türk", "TV 100" kanallarında, "Yeni Şafak", "Takvim", "Beyaz qazete", "Star", "Yeni çağ", "Haber vitrini" qəzetlərində, "Ensonhaber.com" və digər elektron nəşrlərində dövlətimizin başçısının müraciətində səsləndirdiyi fikirlər oxucuların diqqətinə çatdırılıb.

Xəbərlərdə Prezident İlham Əliyevin Ermənistan silahlı qüvvələrinin qanunsuz birləşmələri tərəfindən Azərbaycana qarşı törədilmiş terror aktları və təxribatlar, eləcə də mina terroru nəticəsində hərbi qulluqçuların və mülki şəxslərin həlak olması barədə fikirləri yer alıb.

Prezident İlham Əliyevin müraciətində Azərbaycanın Ermənistana lazımi cavab verməsi barədə fikri xüsusi vurğulanıb. Dövlətimizin başçısının çıxışında Azərbaycan Ordusunun yüksək peşəkarlıq göstərərək yalnız hərbi hədəflərə zərbələr endirdiyi, mülki infrastrukturu və mülki şəxsləri hədəfə almadığını qeyd etdiyi bildirilib, Azərbaycan Prezidentinin "Ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır" fikri diqqətə çatdırılıb.

Türkiyə KİV-ləri Prezident İlham Əliyevin müraciətində Qarabağın erməni sakinlərinə mesajlarına da xüsusi yer veriblər. Dövlətimizin başçısının Azərbaycan dövləti və xalqının bütün haqsızlıqlara, kriminal Ermənistan rejimi tərəfindən törədilmiş bütün cinayətlərə baxmayaraq, erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmadığını qeyd etməsi bildirilib.

Yazılarda dövlətimizin başçısının kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyinin, bu zəhər yuvasının artıq tarixdə qalması və Qarabağda yaşayan erməni əhalisinin də, nəhayət, rahat nəfəs ala biləcəyi barədə fikrinə istinad edilib.

***

**Azərbaycanın Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrinə qarşı həyata keçirdiyi antiterror tədbirləri və Prezident İlham Əliyevin sentyabrın 20-də xalqa müraciəti Rusiya mətbuatının da diqqət mərkəzindədir.**

TASS agentliyinin materiallarında Prezident İlham Əliyevin xalqa müraciətində antiterror tədbirlərindən sonra regionda vəziyyətin dəyişəcəyi, kriminal rejimin süqutundan sonra gərginlik mənbəyinin keçmişdə qaldığı barədə fikirləri yer alıb. Agentlik dövlət başçısının Azərbaycan Ordusunun qarşıya qoyulan vəzifəni peşəkarlıqla yerinə yetirməsi, qəhrəmanlıq və şücaət göstərməsi barədə dediklərini diqqətə çatdırıb. Eyni zamanda, Prezident İlham Əliyevin hərbçilərə dinc əhalinin zərbə altına düşməməsi və qorunmasına dair tapşırıq verməsi önə çəkilib.

"Qazeta.ru" nəşri Azərbaycanın antiterror tədbirləri zamanı qarşıya qoyulan məqsədlərə nail olduğunu yazıb. Nəşr xatırladıb ki, Azərbaycan antiterror tədbirlərinə genişmiqyaslı təxribatlardan sonra başlayıb və erməni qoşunlarını öz ərazisindən çıxarıb.

"NTV" telekanalı Azərbaycan Prezidentinin Qarabağda aparılan əməliyyatın tamamilə legitim, qanuni və ədalətli olması barədə fikirlərini sitat gətirir. Materialda qeyd olunub ki, qanunsuz silahlı birləşmələr tam tərksilah olunacaq, onlardan müsadirə olunan texnika məhv ediləcək.

"RBK" agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətinə geniş yer ayırıb, dövlət başçısının Qarabağın erməni əhalisinin təzliklə yaxşılığa doğru dönüşün şahidi olacağı barədə dediklərini vurğulayıb. Agentlik Prezident İlham Əliyevin "Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur" fikirlərini oxucularının diqqətinə çatdırıb.

"Life" internet nəşri qeyd edib ki, Azərbaycan qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində cəmi bir günə qarşıya qoyulan vəzifələri yerinə yetirib. Nəşr Azərbaycan Prezidentindən sitat gətirərək yazır ki, terrorçular onların təxribatlarına layiqli cavab veriləcəyini bir daha anladılar.

"Kommersant" qəzeti Prezident İlham Əliyevin xalqa müraciətini ətraflı işıqlandırıb. Nəşr dövlət başçısının müraciətində Ermənistan hakimiyyətinin siyasi səriştə göstərməsi və bunun Ermənistan ilə Azərbaycan arasında gedən sülh prosesinə müsbət təsir göstərəcəyi barədə fikirlərinə yer ayırıb. Nəşrin digər materialında qeyd olunur ki, hazırkı antiterror tədbirlərindən sonra Cənubi Qafqaz regionunda yeni güc mərkəzi yaranır. Bu, Azərbaycan və Türkiyədir.

***

**Azərbaycan Ordusunun həyata keçirdiyi lokal antiterror tədbirlərini uğurla başa çatdırması qonşu İran mətbuatında da əks olunub.**

İranın "Ghatreh", "Fardanews", "Eco-iran", İRNA, "Mehr" və digər informasiya agentliklərinin saytlarında verilən materiallarda Azərbaycan Ordusunun 24 saat ərzində Qarabağda lokal antiterror tədbiri keçirdiyi bildirilib.

Materiallarda Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətindən sitat gətirilib. Qeyd olunub ki, Azərbaycan öz məqsədinə nail olaraq suverenliyini bərpa etdi. Prezident İlham Əliyev orduya antiterror tədbirləri zamanı mülki əhalinin təhlükəsizliyinin təmin olunması haqqında əmr verib. Xəbərlərdə nəzərə çatdırılıb ki, Prezident Qarabağın erməni əhalisinin təhlükəsizliyinə və hüquqlarının qorunmasına zəmanət verib.

***

**Yaponiyanın yeganə ictimai media qurumu olan NHK-nın (Japan Broadcasting Corporation) saytı yazıb: "Çərşənbə axşamı Azərbaycan Silahlı Qüvvələri Qarabağda antiterror tədbirlərinə başlayıb. Çərşənbə günü etnik ermənilər atəşkəs şərtlərini qəbul etdiklərini elan ediblər".**

Nəşr yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev xalqa ünvanladığı müraciətdə artıq sözügedən bölgədə suverenliyin bərpa edildiyini bəyan edib və hərbçiləri bu cür əhəmiyyətli nailiyyətlərini yüksək qiymətləndirib.

2020-ci ildə Azərbaycanla Ermənistan arasında Qarabağ uğrundakı hərbi toqquşma Rusiyanın vasitəçiliyi ilə atəşkəsin elan edilməsi ilə nəticələnmişdi.

Nəşrin məlumatına əsasən, etnik erməni qüvvələrinin faktiki məğlubiyyəti Ermənistanın paytaxtı İrəvanda hakimiyyət əleyhinə çıxışların qızışmasına gətirib çıxarıb.

***

**Prezident İlham Əliyevin xalqa müraciəti zamanı söylədiyi fikirlər Gürcüstan mediasının da diqqət mərkəzindədir.**

Bu ölkənin "interpressnews.ge", "netgazeti.ge", "frontnews.ge", "newposts.ge", "ghn.ge", "apsny.ge", "kavkasiya.com", "qafqazturk.com", "palitranews.ge", "ambebi.ge", "24news.ge", "aktual.ge", "interpress.ge", "newsday.ge", "realnews.ge", informasiya portallarının, eləcə də "1tv.ge", "maestro.tv", "tv.pirveli", "rustavi2" televiziya kanallarının yaydıqları xəbərlərdə oxuculara və tamaşaçılara Azərbaycan Prezidentinin fikirləri Azərbaycan, rus və gürcü dillərində məlumatlar çatdırılıb. Məlumatlarda Azərbaycan Prezidentinin Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin bundan sonra dinc yaşayacaqları, regionun inkişafı, heç kimin Azərbaycanla ultimatum dilində danışa bilməyəcəyi, regionda yeni dövrün başlanacağı barədə fikirləri xüsusi qeyd olunub. Ümumilikdə, Gürcüstan mətbuatında Azərbaycan Prezidentinin müraciəti ilə bağlı 50-dən çox xəbər yayımlanıb.






***

**Macarıstanın kütləvi informasiya vasitələri Azərbaycanın Qarabağ bölgəsində 24 saat ərzində keçirilən lokal antiterror tədbirlərini geniş işıqlandırıb.**

Siyasi analitik Andraş Raçın "444.hu" nəşrində dərc olunmuş məqaləsində Bakıdakı mərkəzi hökuməti son nəticədə Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin qalıqlarının zərərsizləşdirilməsi qərarına gətirib çıxaran hadisələrin xronologiyası yer alıb. Müəllif antiterror tədbirlərinin keçirildiyi zonanın "Ermənistanın nəzarəti altında" olduğunu və bu ərazidə rəsmi İrəvan tərəfindən idarə edilən qanunsuz hərbi birləşmələrin yerləşdiyini qeyd edib.

A.Raç yazıb: "Formal olaraq, erməni qüvvələrinin təslim olması Moskvanın vasitəçiliyi ilə atəşkəs elan edilməsi kimi qələmə verilib, amma mahiyyət etibarilə bütün bunlar kapitulyasiyadır". Razılaşmanın əsas müddəalarını qısaca diqqətə çatdıran müəllif xatırladıb ki, cümə axşamı Yevlaxda "Azərbaycanın mərkəzi hökuməti ilə yerli ermənilər arasında görüş olacaq".

***

**Ərəb ölkələrinin kütləvi informasiya vasitələrində də Azərbaycanın Qarabağ bölgəsində keçirdiyi antiterror tədbirləri və dövlətimizin bu ərazilərdə öz suverenliyini bərpa etməsi haqqında materiallar dərc edilib.**

"Əl Əhram" qəzetində dərc olunmuş məqalədə Prezident İlham Əliyevin sentyabrın 20-də xalqa müraciətindən əsas məqamlar yer alıb. Oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı Qarabağda erməni kəşfiyyat-diversiya qrupları tərəfindən mina terrorundan sonra dərhal lazımi addımlar atıldığını, düşmənin layiqincə cəzalandırıldığını bildirib. Vurğulanıb ki, lokal xarakterli antiterror tədbirlərinə başlanılıb və qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirilib. Antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa edib.

"Əl-Vəsat" nəşrində dərc olunan "Azərbaycan Qarabağda öz suverenliyini bərpa edib" sərlövhəli yazıda da Prezident İlham Əliyevin xalqa müraciətindən sitatlar verilib. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev uğurlu antiterror tədbirləri nəticəsində qanunsuz erməni silahlı birləşmələrinin mövqelərdən çıxarılma prosesinin başladığını, o cümlədən onların Azərbaycanın şərtini qəbul edərək silahları təhvil verdiyini bildirib. Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Bakının antiterror tədbirlərinə başlaması qanunsuz erməni hərbi birləşmələrinin təxribatları, o cümlədən azərbaycanlı hərbçilər və mülki şəxslərin həlak olması ilə nəticələnən mina terroru ilə bağlı olub.

"Arab.48" informasiya portalında dərc olunmuş materialda da Azərbaycanın qısamüddətli antiterror tədbirlərindən sonra öz ərazilərində suveren hüquqlarını bərpa etdiyi, qanunsuz erməni hərbi birləşmələrinin ağ bayraq qaldıraraq təslim olduğu və Xankəndidəki separatçı rejimin Bakının bütün şərtlərini qəbul etdiyi bildirilib. Məqalədə, eyni zamanda, Prezident İlham Əliyevin Qarabağdakı erməniəsilli vətəndaşların Azərbaycan Konstitusiyasına müvafiq şəkildə reinteqrasiyası barədə fikirləri yer alıb. Yazıda qeyd olunub ki, Azərbaycanın dövlət başçısı Qarabağ ermənilərinin bütün hüquqlarının təmin ediləcəyini də söyləyib.

Bundan başqa, "Independentarabia", "Əl Nəşra" informasiya portallarında, həmçinin "Əl Cəzirə", "SkyNewsArabia" telekanallarında da Azərbaycanın Qarabağda öz suverenliyini tam şəkildə təmin etməsi, sentyabrın 21-də Yevlax şəhərində Azərbaycanın dövlət strukturlarının nümayəndələri və Qarabağın erməniəsilli sakinləri arasında aparılan danışıqlar barədə xəbərlər və reportajlar yayımlanıb.

***

**Küveyt və Ərəb Elektron Media Birliklərinin İdarə Heyətinin sədri Feysəl Xəlifə Əl-Səvvağ Azərbaycan Respublikasının Qarabağ bölgəsində qanunsuz erməni hərbi birləşmələrinin təxribatlarını pisləyən bəyanat yayıb.**

Bəyanatda qeyd olunub: "Sentyabrın 19-da Azərbaycan Respublikasının Qarabağ bölgəsində qeyri-qanuni yerləşmiş erməni kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda əvvəlcədən quraşdırılmış minaların partlaması səbəbindən mülki şəxslərin və hərbi qulluqçuların həlak olması ilə nəticələnən terror aktını qəti şəkildə pisləyirik.

Dinc əhalinin, o cümlədən işğaldan azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin və hərbi qulluqçuların təhlükəsizliyinin təmin olunması məqsədilə erməni silahlı dəstələrinin tərk-silah edilərək Azərbaycan ərazilərindən çıxarılmasını tələb edirik. Eyni zamanda, Ermənistanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarına əməl etməyə çağırırıq".

***

**Niderland mediasında Azərbaycanın antiterror tədbirlərinin Qarabağda sülhə gətirib çıxaracağından bəhs edilib.**

Niderlandın https://www.haber.nl xəbər portalında "Azərbaycanın terror ünsürlərinə qarşı əməliyyatı ermənilərə geri addım atdırdı" sərlövhəli məqalə yayımlanıb. "Beynəlxalq Qadınlar Klubu"nun sədri Kəmalə Cəlilovanın qələmə aldığı məqalədə Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərin separatçıların təslim olması ilə nəticələndiyi, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətinin nəzərə alındığı, tam atəşkəs haqqında razılaşma əldə olunduğu, Qarabağın erməni sakinlərinin nümayəndələri ilə 2023-cü il sentyabrın 21-də Yevlaxda görüş təyin edildiyi barədə ətraflı məlumat verilib.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanın sülh və sabitlik üçün hər zaman hazır olduğunu bəyan etdiyi vurğulanıb.

***Hazırladı:***
***T.RÜSTƏMLİ***
***XQ***

# YAP-ın idarə heyətinin iclası



**Sentyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib.**

YAP-ın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda partiyanın Təftiş Komissiyasının sədri, Mərkəzi Aparatının əməkdaşları və yerli təşkilatların sədrləri də iştirak ediblər.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlcə Prezident, Müzəffər Ali Baş Komandan, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun həyata keçirdiyi lokal antiterror tədbirlərinin uğurla başa çatmasının əhəmiyyətindən bəhs edib. Bu hadisəni ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin növbəti təntənəsi kimi qiymətləndirən YAP Sədrinin müavini qeyd edib ki, antiterror tədbirlərinin Ermənistana dəstək verən beynəlxalq dairələrin ölkəmizə qarşı nümayiş etdirdiyi qeyri-obyektiv və qərəzli münasibət fonunda baş verməsinə baxmayaraq, Prezident İlham Əliyevin dəmir iradəsi və prinsipial mövqeyi nəticəsində Azərbaycanın haqq işi növbəti dəfə qələbə ilə yekunlaşdı.

Sonra YAP Goranboy rayon təşkilatının sədri Elçin Şamil oğlu İsmayılovun vəzifəsindən azad edilməsi barədə ərizəsinə baxılıb və müvafiq qərar qəbul olunub.

YAP Füzuli rayon təşkilatının sədri vəzifəsinə Nazimə Pəsərək qızı Şamıyevanın, YAP Goranboy rayon təşkilatının sədri vəzifəsinə isə Samir Hatəm oğlu Qocayevin təyin edilməsi məsələsinə baxılıb. Müzakirələrdən sonra hər iki namizədin irəli sürülən vəzifələrə təyin olunması barədə qərar qəbul olunub.

İdarə Heyətinin iclasında YAP-ın üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı YAP rayon (şəhər) təşkilatlarının təqdimatlarına da baxılıb. İdarə Heyətinin üzvü Elnarə Akimova çıxış edərək məsələyə münasibət bildirib. 304 nəfərin partiyanın nüfuzuna xələl gətirən hərəkətlərinə görə YAP sıralarından xaric edilməsinə dair qərar qəbul olunub.

Sonda cari məsələlər müzakirə edilib.

# Ermənipərəst senator qızıl külçələri rüşvət alıb

**ABŞ Konqresindəki ermənipərəst senator Bob Menendezin qızıl külçələr şəklində rüşvət aldığı iddia edilir və hazırda federal prokurorlar tərəfindən istintaq altındadır.**




XQ xəbər verir ki, 400 min dollar dəyərində qiymətləndirilən qızıl külçələrinin ona Fred Daibes adlı tərtibatçı tərəfindən verildiyi iddia edilir.

Daibesin federal bank ittihamları ilə üzləşdiyi üçün Menendezə rüşvət verdiyi bildirilir.

Xatırladaq ki, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin vəzifələrini icra edən Yuri Kim erməni lobbisi ilə korrupsiya əlaqələrinə görə hazırda ABŞ Federal Təhqiqatlar Bürosunun istintaqı altında olan senator Bob Menendez 14 sentyabr 2023-cü ildə ABŞ Senatında təşkil etdiyi dinləmələrdə anti-Azərbaycan bəyanat verib.

# Azərbaycan yenə dünyaya nümunə göstərdi

## Lokal xarakterli antiterror tədbirlərinin yüksək peşəkarlıqla həyata keçirilməsi bədxahlarımızın xəbis niyyətlərini gözlərində qoydu

**Azərbaycan Ordusu hərb tariximizə daha bir şərəfli səhifə yazdı. Ordumuzun sentyabrın 19-da günorta saatlarında başlayan və bir sutkadan az davam edən lokal xarakterli antiterror tədbirlərini yüksək peşəkarlıqla yerinə yetirməsi belə deməyə əsas verir. Bu tədbirlər zamanı Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarıldı.**



Lokal xarakterli antiterror tədbirlərinin uğurlu olması Prezident İlham Əliyev tərəfindən də qiymətləndirildi. Dövlət başçımız sentyabrın 20-də xalqa müraciətində bu barədə dedi: “Qeyd etməliyəm ki, antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır”.

Beləliklə, ordumuzun yüksək peşəkarlığına dostlarımız da, düşmənlərimiz də bir daha şahid oldular. Dostlarımız sevindilər, düşmənlərimiz kədərləndilər. Əminliklə demək olar ki, antiterror tədbirlərinin peşəkarlıqla həyata keçirilməsi nəticəsində ölkəmizin qarşısına qoyduğu strateji hədəflərə tam nail olundu. Qondarma separatçı rejimin bir sutka ərzində ağ bayraq qaldırması da, əslində, tədbirlərin uğurlu olmasının təsdiqidir.

Ümumiyyətlə, qondarma rejim, onu yaradan və 30 ildən artıq himayə edən Ermənistan Azərbaycan Ordusunun gücünü ilk dəfə hələ 2016-cı ilin Aprel döyüşləri zamanı görmüşdülər. Aprel döyüşləri bizim gələcək qələbələrimizin müjdəsi idi. Ondan iki il sonra – 2018-ci ilin mayında Günnüt əməliyyatı keçirildi. Bu əməliyyat Aprel döyüşlərindən sonra növbəti ən böyük uğurumuz oldu.

Həmin əməliyyat bir sıra yüksəkliklərin, ərazilərin azad olunması baxımından əhəmiyyətli idi. Belə ki, Azərbaycan Ordusu yeddi gün ərzində Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya, Qaraqaya dağlarını azad etdi. Bundan başqa, Dərələyəz mahalının Arpa kəndinin bir sıra mühüm strateji ərazilərinə nəzarət sayəsində gələcək əməliyyatlara ciddi töhfə vermiş oldu. Qısa müddət ərzində 11 min hektar ərazinin azad olunması düşmənə ciddi mənəvi-psixoloji təsir göstərdi. Çünki Azərbaycan Ordusu bu ərazilərdən İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə müvəffəq oldu. Məhz bu nəzarət 44 günlük Vətən müharibəsində düşmənin Naxçıvan Muxtar Respublikası istiqamətində təxribat törətməsinə imkan vermədi. Çünki düşmən fərqində idi ki, belə olacağı təqdirdə, tam şəkildə mühasirəyə düşəcək.

Ümumilikdə, həm Aprel döyüşləri, həm də Günnüt əməliyyatı Azərbaycan Ordusunun peşəkarlığını, döyüş əzmini göstərdi. İstər Aprel döyüşləri, istərsə də Günnüt əməliyyatı Vətən müharibəsindəki Zəfərimizə ciddi töhfə verdi.

2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsi isə 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad olunması ilə nəticələndi. Cəmi 44 gündən sonra Ermənistan ağ bayraq qaldıraraq təslimolma aktını imzaladı.

Bu il sentyabrın 19-da başlayıb 20-də bitən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə Azərbaycan özünün beynəlxalq birlik tərəfindən tanınan torpaqları üzərində hakimiyyətini tam bərqərar etdi.

***

Lokal miqyaslı antiterror tədbirlərinin hərbi planda uğuru ilə yanaşı, digər məqamları da qeyd etmək lazımdır. Burada da, ilk növbədə, yaşayış məntəqələrinə hərbi vasitələrlə – tanklarla, toplarla daxil olmamağımızı vurğulamaq olar. Nəticədə, dinc insanlar arasında itkilər olmadı. Həmçinin mülki obyektlər ziyan görmədi. Tədbirlər çərçivəsində yalnız legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınaraq sıradan çıxarıldı. Kommunikasiyalar və yüksəkliklər nəzarətə götürüldü.

Bu antiterror tədbirləri mülki əhalinin, demək olar ki, zərər görməməsinə dair çox nadir nümunədir. Hətta BMT-nin bu sayaq tədbirlərində belə mülki insanlar arasında itkilər olur. Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən atəş vasitələrinin yaşayış yerlərinin yaxınlığında yerləşdirilməsini nəzərə alaraq, Azərbaycan Müdafiə Nazirliyi ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırış etdi. Bu barədə mobil SMS xidməti vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə məlumat göndərildi. Eyni zamanda, səsgücləndirici texniki vasitələrlə əhali xəbərdar edildi və məlumat vərəqələri paylanıldı. Müdafiə Nazirliyinin açıqlamasında o da qeyd olundu ki, qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaq. Əhalinin təhlükəli ərazidən təxliyyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələrinin yaradılması da görülən tədbirlər sırasında idi.

Eyni zamanda, Azərbaycan qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq, təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olundu. Onlara xətər yetirilmədi.

Beləliklə, Azərbaycan bu məsələdə də nümunə göstərdi. Bu isə yenə də bilavasitə Prezident İlham Əliyevin tapşırıqlarının icrasının nəticəsidir. Dövlət başçımız xalqa müraciətində bununla bağlı bildirib: “Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda, göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir”.

Beləliklə, Azərbaycan rəhbərliyi ölkəmizi müxtəlif məsələlərdə ittiham edənlərə heç bir bəhanə vermədi. Əlbəttə, bəzi dairələr lokal miqyaslı antiterror tədbirləri zamanı hansısa xoşagəlməz halların baş verməsini çox istəyərdilər. Onlar, məsələn, uşaqların, yaşlı insanların ölümü kimi hallardan çox “məharətlə” yararlanmağı bacarırlar. Azərbaycanın öz ərazisində lokal xarakterli antiterror tədbirlərini bir sutka ərzində yüksək peşəkarlıqla həyata keçirməsi xüsusilə BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı 21 sentyabr tarixli iclası ərəfəsində anti-azərbaycançı dairələrin xəbis niyyətlərini gözlərində qoymuş oldu.

***H.SƏXAVƏT***
***XQ***

### EKSPERT RƏYİ

**Zaur MƏMMƏDOV,**
**Bakı Politoloqlar Klubunun sədri**



– Azərbaycanın bir sutka ərzində böyük hədəflərə nail olmasının şahidi olduq. Bu, Ali Baş Komandan, Prezident İlham Əliyevin uzaqgörənliyinin və Azərbaycan Ordusunun yüksək peşəkarlığının nəticəsidir. Daha öncə razılığa gəlmək istəməyən, Azərbaycanın sosial-iqtisadi, hüquqi sisteminə reinteqrasiya etməkdən yayınan, qanunsuz hərbi birləşmələrin bölgədən çıxarılmayacağını bildirən, onu “müdafiə ordusu” adlandıran separatçı xunta rejimi “dəmir yumruğ”un gücünü bir daha gördü. Nəticədə, müqavimət göstərməyin mənası olduğunu başa düşərək təslim oldular, ağ bayraq qaldırdılar.

Bu, günümüzün reallığıdır. Bu reallığı ərsəyə gətirmək asan olmadı. Ermənistan öz yaxın müttəfiqləri ilə birgə ölkəmizə qarşı çirkin planlar hazırlayırdı. Ayrı-ayrı beynəlxalq və regional oyunçuların bölgə ilə bağlı planları var idi. Lakin rəsmi Bakı apardığı müdrik siyasətlə bütün bu planları alt-üst etdi və sübut elədi ki, Azərbaycanla hesablaşmaq lazımdır. Azərbaycan suverenlik, ərazi bütövlüyü məsələsində heç kəsə güzəştə getmək fikrində deyil.

Azərbaycan Qarabağ iqtisadi rayonunda yaşayan erməni əsilli vətəndaşlarını qoruyacaq, onların konstitusion hüquqlarını bərpa edəcək və separatçı xunta rejiminin girovluğundan qurtaracaq. Bu, eyni zamanda, Qarabağ ermənilərinin yeni həyata başlaması üçün bir şansdır. Azərbaycan lokal antiterror tədbirləri nəticəsində strateji hədəflərə nail oldu, öz əraziləri üzərində suverenliyini tam bərqərar etdi.

Məsələ Azərbaycanın tamamilə daxili işidir və heç bir kənar qüvvə bu kövrək sülh prosesinə müdaxilə etməməlidir, qərəzli bəyanatlardan çəkinməlidir. İftira və böhtanların da bir həddi olmalıdır. Onlar bu addımlardan çəkinməlidirlər ki, Azərbaycanın müvafiq qurumları mülki əhali ilə birgə gələcək quruculuq işlərini planlaşdırıb həyata keçirə bilsin. Zənnimcə, Cənubi Qafqazda sülh istəyən, o cümlədən özünü ermənilərin yaxşı yaşamasının tərəfdarı kimi təqdim etməyə çalışanlar da baş verənlərdən nəticə çıxarmalıdırlar.

# Paşinyan duruş gətirə biləcəkmi?

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, normalda elə bu cür də yanaşma sərgilənməli idi. Çünki Qarabağ Azərbaycanın suveren ərazisidir və burada baş verənlər ölkəmizin daxili işidir. Sadəcə olaraq, Ermənistan rəhbərliyinin Azərbaycanın daxili işlərinə o qədər müdaxilə etməsini görmüşük ki, indi bunun əksi nümayiş etdiriləndə, bizə qəribə təsir bağışlayır.

Ermənistanın mövqeyi ilə bağlı Prezident İlham Əliyev də fikirlərini bildirib. Dövlət başçımız sentyabrın 20-də xalqa müraciətində bu barədə deyib: “Ermənistan bu dövr ərzində – dünən, bu gün deyə bilərəm ki, gözlənilmədən siyasi səriştə göstərib və biz bunu qiymətləndiririk. Bunu önəmli amil kimi görürük və hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda, Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək”.

Əslində, bizim hər zaman Ermənistandan tələbimiz də İrəvanın Azərbaycanın daxili işlərinə qarışmaqdan əl çəkməsi, ölkəmizin Qarabağ bölgəsində etnik separatizmi qızışdırmaqdan kənar durması ilə bağlı olub. Nikol Paşinyan 2018-ci ilin mayında Ermənistanı zəli kimi soran Qarabağ klanını devirib hakimiyyətə gələndə məsələnin sülh yolu ilə tənzimlənməsinə dair müəyyən ümidlər yaranmışdı. Hətta elə həmin ilin mayında keçirilən uğurlu Günnüt əməliyyatı barədə məlumatlar da üstündən bir müddət keçdikdən sonra açıqlanmışdı. Əfsuslar olsun ki, Paşinyan iqtidarı başqa yol tutdu. Onun davakar ritorikası İkinci Qarabağ müharibəsinin başlanmasına səbəb oldu. Nəticədə, Ermənistan məğlubiyyətə uğradı, baş naziri təslimolma sənədinə imza atdı.

Prezident İlham Əliyevin xalqa müraciətində dediyi kimi, müharibədən bir müddət sonra biz status haqqında cəfəng ifadələri eşitmədik. Amma görünür ki, bu qorxu onların canından yavaş-yavaş çıxdıqca yenidən revanşist qüvvələr baş qaldırır. Bu ayın 9-da Qarabağda saxta “prezident seçkiləri” keçirildi. Özünü “prezident” adlandıran şəxs dərhal bəyan etdi ki, onlar statusun dalınca qaçacaqlar. Həm bu, həm də digər səbəblərdən Azərbaycan lokal xarakterli antiterror tədbirləri keçirmək məcburiyyətində qaldı. Nəticədə, separatçı xunta rejimi ağ bayraq qaldıraraq təslim oldu. N.Paşinyan isə bütün bu proseslər zamanı adekvat mövqe sərgilədi.




Ümid edək ki, Ermənistan bundan sonra da proseslərə normal yanaşma sərgiləyəcək, rəsmi İrəvan Azərbaycanın ərazi bütövlüyünü təkcə şifahi deyil, yazılı şəkildə də tanıyacaq və iki ölkə arasında sülh müqaviləsi imzalanacaq. Azərbaycan Cənubi Qafqaz ölkələrinin gələcəyinin sülhə, əmin-amanlığa, inkişafa söykənməsini təklif edir. Zənnimizcə, bu məqamda yenə Prezident İlham Əliyevin xalqa müraciətindəki fikirlərdən iqtibas gətirmək yerinə düşər: “Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər bizdən əl çəksinlər. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil – Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, “dəmir yumruq” yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”

Bununla belə o da qeyd olunmalıdır ki, sentyabrın 19-u günortadan etibarən İrəvanın mərkəzindəki “Respublika” meydanında N.Paşinyana qarşı kütləvi etiraz aksiyası keçirilir. Aksiya zamanı iştirakçılarla polis arasında toqquşmalar baş verir. Etiraz aksiyasında 30 nəfər saxlanılıb, 28 nəfər cinayət məsuliyyətinə, 2 nəfər inzibati məsuliyyətə cəlb edilib. “Hraparak” qəzeti isə baş nazirin istefa verməyəcəyini yazıb. Nəşr qeyd edib ki, Paşinyan etiraz aksiyası fonunda ailə üzvlərini paytaxtdan çıxarıb. Bunun ardınca bir qrup tərəfdarı ilə görüşüb. O, silahdaşlarına açıq şəkildə bildirib ki, nəyin bahasına olursa-olsun hakimiyyətdə qalacaq və istefa verməyəcək.

***S.HƏMİD***
***XQ***




## “Azərbaycan Qarabağ ermənilərinin dinc yaşayışını təmin edəcək”

**Azərbaycan Qarabağın erməni sakinlərinin mülki və siyasi hüquqlarla dinc yaşamasını təmin edəcək. Bu sözləri AZƏRTAC-a müsahibəsində Roma Sapienza Universitetinin tədqiqatçısı, professor Daniel Pommier Vinçelli deyib.**

“Bu gün Yevlax şəhərində Azərbaycanın mərkəzi hakimiyyətini təmsil edən rəsmilərlə Qarabağın erməni sakinlərinin nümayəndələri arasında görüş keçirilib. Hesab edirəm ki, Qarabağın Azərbaycanın bir hissəsi olması faktı qəbul edilmiş və müzakirəyə açıq olmayan məsələdir. Hətta Ermənistanın baş naziri Paşinyan da bu reallığı etiraf edib. Hazırda əsas məsələ Qarabağın erməni sakinlərinin taleyidir. Azərbaycan vətəndaşları tam hüquqlara malikdir və mədəni muxtariyyətlərini qoruyurlar. Azərbaycan multikulturalizmi ilə fəxr edən ölkədir və düşünürəm ki, buna uyğun hərəkət edəcək”, - deyə professor vurğulayıb.

İtaliyalı tədqiqatçı bildirib ki, hadisələrin bu formada cərəyan etməsi azərbaycanlı qaçqın və məcburi köçkünlərin geri qayıtmaları, onların evlərinə, mülklərinə, məktəblərinə, abidələrinə və digərlərinə qovuşması deməkdir. Bu, həmçinin Qarabağın erməni sakinlərinin tam mədəni muxtariyyət, mülki və siyasi hüquqlarla dinc yaşaya bilmələrinə şərait yaradacaq. Eyni zamanda, Qərblə qarşılıqlı əlaqə sayəsində regionun Avropaya inteqrasiyası mümkün olacaq. Mənim arzuladığım və görmək istədiyim Qarabağ məhz budur.

“Mən hadisələri elmi qiymətləndirməyə alışmışam. Qərbdə bir çox müşahidəçilər Azərbaycanı ermənilərə “təcavüz” etdiyinə görə qınayır və hətta Azərbaycanı Rusiya ilə müqayisə edirlər. Həqiqət isə tam əksinədir. Ermənilər hələ 1993-cü ildən işğalçılıq siyasəti yürüdüblər. Azərbaycan isə bu müddət ərzində beynəlxalq səviyyədə tanınmış sərhədlərini qorumaq üçün mübarizə aparıb. Şəxsən mən ikili standarta dözə bilmirəm və bu, öhdəsindən gəlməli olduğumuz mühüm məsələdir”, - deyə Daniel Pommier Vinçelli qeyd edib.

# “Bir pəncərə”dən keçən Şərq–Qərb yolu

## *Rəqəmsallaşma bu marşrutda daşımaları asanlaşdırır*

**Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizi (TRACECA) Transxəzər Beynəlxalq Şərq–Qərb Orta Dəhlizi boyu “Bir pəncərə” prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun rəqəmsallaşdırılmasına mühüm önəm verir. Bu yenilik təkcə marşrutun cəlbediciliyinin artırmır, həm də əlavə yüklərin daşınmasına əlverişli şərait yaradır.**

TRACECA-nın ayrı-ayrı marşrutlarda elektron dəmir yolu yük qaiməsinin istifadəsi üzrə pilot layihənin həyata keçirilməsi üzrə İşçi qrupunun videokonfrans formatında ilk iclasında da bu barədə ətraflı söhbət açılıb. Sözügedən nəqliyyat dəhlizi saytının yaydığı məlumata əsasən, layihə üzrə işçi qrupunun tərkibinə beş iştirakçı ölkənin – Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkiyə və Ukraynanın nəqliyyat, dəmir yolu, dəniz nəqliyyatı və liman operatorları, habelə gömrük orqanlarının nümayəndələri daxil edilib. İşçi qrupun iclasında pilot layihənin həyata keçirilməsi üzrə ilkin fəaliyyətlər müzakirə olunub.

Xatırladaq ki, adıçəkilən pilot layihənin həyata keçirilməsi 22 may 2023-cü il tarixində imzalanan anlaşma memorandumu ilə nəzərdə tutulub. İşçi qrupu BMT, Dəmir Yolları arasında Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Dəmir Yolu Nəqliyyatı Komitəsi, Avropa İqtisadi Komissiyası ilə birgə layihəni həyata keçirən TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin koordinasiyası ilə yaradılıb. Belə ki, 45-dən çox iştirakçının iştirak etdiyi iclasda elektron yük qaiməsinin istifadəsinin hüquqi və texniki aspektlərinin ilkin təhlili müzakirə olunub. Növbəti mərhələlərdə TRACECA dəhlizi boyunca elektron yük qaiməsinin tam tətbiqi üçün zəruri hüquqi mühitin təmin edilməsi üçün təkliflərin hazırlanması nəzərdə tutulub.

Bundan əlavə, həmin iclasda BMT-nin Avropa İqtisadi Komissiyası ilə əməkdaşlıq şəraitində ayrı-ayrı TRACECA marşrutları üzrə elektron yük qaiməsinin istifadəsi üzrə pilot layihəyə elektron sənədinin prototipinin hazırlanması, eləcə də BMT standartlarının və proseslərin bu beynəlxalq təşkilatın müvafiq mərkəzlərinin ekspertləri tərəfindən hazırlanan məlumat modellərinin istifadəsi üzrə potensial texniki dəstək təqdim olunub. Bütün fəaliyyətlərin TRACECA Baş katibliyinin dəstəyi ilə beynəlxalq dəmir yolu təşkilatları ilə əlaqəli şəkildə həyata keçirilməsi nəzərdə tutulub.

Transsərhəd və milli səviyyədə e-CIM/SMGS yük qaiməsi üzrə məlumatların elektron mübadiləsi üçün mövcud və yeni hazırlanmış texniki həllərin virtual və paralel sınaqdan keçirilməsi növbəti iki il müddətinə planlaşdırılır ki, bu da gələcəkdə kağız sənədlərsiz dəmir yolu nəqliyyatına keçidi asanlaşdıracaq.

Yeri gəlmişkən, TRACECA-nın beynəlxalq yük daşımalarının səmərəliliyinin təmin edilməsində fəal iştirakçı olan Azərbaycan bu dəhlizə üzv 13 ölkə ilə birlikdə nəhəng infrastrukturun inkişafında mühüm rol oynayır, daşımaların həcminin artırılması məqsədilə xüsusi layihələrin həyata keçirilməsinə prioritet istiqamət kimi yanaşır. Bir sözlə, TRACECA boyunca multimodal nəqliyyatın inkişafı, dəhlizin rəqəmsallaşdırılması, sərhəd-keçid prosedurlarının asanlaşdırılması, beynəlxalq avtomobil nəqliyyatı üzrə icazə sistemləri, habelə infrastrukturun inkişafına yönəlmiş digər məsələlərin həllinə böyük önəm verir.

Respublikamızda uzun illər ərzində nəqliyyat–logistika sisteminin inkişafı ilə bağlı qoyulan investisiya hesabına bu sahədə indiyədək mühüm layihələr icra edilib, dəmir və magistral yollar istifadəyə verilib, yeni tankerlər, bərələr və yük gəmiləri potensialı gücləndirilib, müasir gəmiqayırma müəssisəsi işə salınıb. Bütün bunlarla bərabər, ölkəmiz Bakı-Tbilisi-Qars dəmir yolu infrastrukturunun Gürcüstan hissəsinin genişləndirilməsinə sərmayə yatırıb. Respublikamız Yeni Bakı Dəniz Ticarət Limanının 15 milyon tondan 25 milyon tona qədər genişləndirilməsini, hava limanları layihələrinin tamamlanmasını gerçəkləşdirilib.

Bakı limanının ərazisi də daxil olmaqla ətraf sahələrdə azad iqtisadi zona da yaradılacaq. Belə bir planın gələcəkdə reallaşması isə tranzit və daşıma imkanları geniş olan mühüm nəqliyyat qovşağının–adıçəkilən limanın TRACECA-nın inkişafında rolunu daha da artıracaq.




Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin, inkişafının və idarəsinin hüquqi rejimini müəyyənləşdirən “Ələt Azad İqtisadi Zonası haqqında” 18 may 2018-ci il tarixli Qanun imzalayıb. Sənədə əsasən, həmin iqtisadi zonada təsərrüfat subyektləri üçün vergi, gömrük, lisenziyalaşdırma, viza rəsmiləşdirilməsi və s. rejimlərin yaradılması nəzərdə tutulub.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, TRACECA beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycan hissəsi ilə yük daşımaları 2022-ci ildə 51 milyard 420 milyon tondan artıq olub ki, bu da 2021-ci ildəkindən 29,76 faiz və ya 11 milyard 8 milyon ton çoxdur. Dövlət Statistika Komitəsinin məlumatına görə isə qeyd olunan dövrdə bu nəqliyyat dəhlizinin Azərbaycan hissəsi ilə yük dövriyyəsi 12 trilyon 649 milyard ton-kilometrdən artıq olub ki, bu da 2021-ci ilin göstəricisindən 31,9 faiz yüksəkdir.

***V.BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**

Müstəqilliyimizin ilk illərində iqtisadi, o cümlədən nəqliyyat əlaqələrinin daha geniş coğrafiyada bərpası zərurəti yaranmışdı. Buna görə də Böyük İpək Yolunun müasir şəraitdə yeni elmi əsaslarla qurulması mühüm və təxirəsalınmaz vəzifələrdən biri kimi qarşıya qoyulmuşdu. Avropa Komissiyası tərəfindən hazırlanan və respublikamızın iqtisadi inkişaf strategiyasında əsas yer tutan həmin yolun bərpası, “Avropa-Qafqaz-Asiya” (TRASEKA) nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsi isə həmin məqsədin gerçəkləşməsində həlledici rol oynadı.

Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi baxımından mühüm coğrafi üstünlüklərə malik olması da layihənin sürətlə icrasını reallaşdırdı. Respublikamızın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşməsi də bu təşəbbüsün həyata vəsiqə qazanmasına müsbət təsir göstərdi. Ölkəmiz beynəlxalq daşımalarda fəaliyyətə başladığı ilk vaxtlardan etibarən yerli infrastrukturu inkişaf etdirmək üçün bu sahəyə geniş həcmdə investisiya qoymağa, qonşularla bağlantı körpülərinin qurulmasını diqqətdə saxlamağa başladı. “Bir kəmər, bir yol” layihəsi ilə bağlı ölkədaxili infrastruktur sistemini gerçəkləşdirdi. Bununla da nəqliyyat dəhlizləri ilə əlaqədar digər proseslərin sürətlə aparılması asanlaşdı.

Hazırda beynəlxalq daşımaların səmərəliliyinin artırılması məqsədilə Yeni Bakı Ticarət Limanı genişləndirilir. Bu zərurət Şərqdən Qərbə daşınan yüklərin həcminin getdikcə artması ilə əlaqədardır. Əgər limanın yükaşırma probleminin həlli diqqətdən kənar qalarsa, o zaman qarşıya qoyulan vəzifənin reallaşmasında ciddi çətinliklər yaranır. Belə ki, sözügedən ticarət infrastrukturu istifadəyə veriləndə onun yükaşırma qabiliyyəti 15 milyon ton idi. İndi isə Bakı Limanının imkanları 25 milyon tona qədər artırılıb. Digər tərəfdən Xəzər dənizində gəmi tikintisi də diqqətdə saxlanılıb. Gəmiqayırma zavodunda il ərzində 20-dək gəminin inşa ediləcəyinin planlaşdırılması da bu məsələyə dövlətimizin həssaslıqla yanaşmasından xəbər verir.

Ümumiyyətlə, son illər ərzində Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Xəzər dənizində ən böyük ticarət donanmamızın inkişafı dəniz nəqliyyatının rəqabətqabiliyyətini yüksəldib. Nəticədə TRASEKA potensial imkanlarından istifadəni xeyli genişləndirib. Təkcə onu qeyd etmək kifayətdir ki, bu ilin ilk yarısında dəniz nəqliyyatında yükdaşımaların həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 21,7 faiz artaraq 4 milyon 514 min 700 ton təşkil edib. Ölkəmizin dəniz limanları tərəfindən isə 2023-cü ilin birinci yarımilliyində 6 milyon 328 min ton yükaşırma işləri həyata keçirilib ki, bunun da 82,4 faizi tranzit yüklərin payına düşüb.

TRASEKA-dan danışarkən, bir məqamı da vurğulamaq istərdim. Belə ki, TRASEKA Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin reallaşmasında önəmli bir baza, körpü rolunu oynayıb. Başqa sözlə, Azərbaycan bununla Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsinə böyük töhfə verib, ölkəmizin dünya dövlətləri ilə inteqrasiyasının daha da dərinləşməsinü sürətləndirib. Təkcə ötən il Azərbaycan üzərindən daşınan yüklərin həcmində 30 faizdən çox artım qeydə alınması məhz bunun bariz ifadəsidir.



# “Gülüstan” sarayında Neftçilər Günü

**“Gülüstan” sarayında Neftçilər Günü münasibətilə təntənəli mərasim keçirilib. Giriş nitqi ilə çıxış edən SOCAR-ın Müşahidə Şurasının sədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısı İlham Əliyevin Neftçilər Günü münasibətilə təbrikini iştirakçılara çatdırıb.**

İqtisadiyyat naziri ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən milli neft strategiyasının ölkəmizin beynəlxalq mövqelərini daha da möhkəmləndirdiyini, iqtisadiyyatın dayanıqlı inkişafına təkan verdiyini, əhalinin maddi rifah səviyyəsinin yüksəlməsində müstəsna rol oynadığını vurğulayıb.

Energetika naziri Pərviz Şahbazov Ulu öndərin neft strategiyasının töhfələri olan layihələrin hər birinin bu gün ölkəmizin və tərəfdaşlarımızın enerji təhlükəsizliyinin, iqtisadi uğurlarımızın mühüm mənbələri olduğunu diqqətə çatdırıb. BP şirkətinin sabiq baş icraçı direktoru Lord Con Filip Braun ümummilli lider Heydər Əliyevlə bir neçə dəfə görüşmək şərəfinə nail olduğunu, Ulu öndəri güclü və xarizmatik lider kimi xatırladığını ifadə edib.

“Əsrin müqaviləsi”nin imzalanması prosesində “Equinor” şirkətinin Azərbaycan üzrə sabiq prezidenti Tor-İvar Pedersen çıxışında Ümummilli liderin Azərbaycanın enerji gələcəyinin formalaşmasında oynadığı mühüm rolun şahidi olduğunu qeyd edib. Ümummilli lider tərəfindən 2001-ci ildə təsis olunan Neftçilər Günü münasibətilə təbriklərini çatdıran SOCAR-ın prezidenti Rövşən Nəcəf Azərbaycan neftçilərinin ölkəmizin dayanıqlı inkişafında mühüm rol oynadıqlarını vurğulayıb.

SOCAR-ın birinci vitse-prezidenti akademik Xoşbəxt Yusifzadə çıxışında Azərbaycan neft-qaz sənayesinin keçdiyi inkişaf yolundan, əldə olunan nailiyyətlərdən bəhs edib.

Tədbirdə “Heydər Əliyev İli” çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və SOCAR-ın birgə təşəbbüsü ilə Ulu öndərin 100 illik yubileyinə həsr olunan poçt markalarının dövriyyəyə buraxılması məqsədilə möhürlənmə mərasimi keçirilib.

***XQ***

# BP Azərbaycanın mötəbər enerji ortağıdır

## *Şirkət və tərəfdaşları ölkəmizin neft-qaz sektoruna 84 milyard dollar sərmayə qoyub*

**(əvvəli 1-ci səhifədə)**

Görüş zamanı “Əsrin müqaviləsi”nin önəmi qeyd olunmaqla yanaşı, bu tarixi sazişin ölkəmizin inkişaf tarixində çox mühüm bir səhifə olduğu vurğulanıb. Prezident İlham Əliyev BP şirkətinin rəhbərliyinin, eləcə də “Əsrin müqaviləsi”nin imzalanmasının birbaşa iştirakçısı və uzun illər şirkətə rəhbərlik edən Lord Con Filip Braunun Azərbaycanda neft işçilərinin peşə bayramı kimi qeyd edilən Neftçilər Günü və sazişin 29-cu ildönümü ilə bağlı keçirilən tədbirdə iştirakını yüksək qiymətləndirib. Dövlətimizin başçısı, həmçinin Azərbaycan ilə Böyük Britaniya şirkəti arasında həyata keçirilən uzunmüddətli sıx, səmərəli və strateji əməkdaşlığın tarixindən bəhs edib.

Azərbaycanın keçdiyi çətin və tarixi sınaq dövründə iqtisadi inkişaf yolunun əsasının qoyulmasında “Əsrin müqaviləsi”nin xüsusi rolunu vurğulayan Prezident İlham Əliyev ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilmiş və nəzərdə tutulan regional və qlobal miqyaslı layihələrdən söhbət açıb.

BP şirkətinin sabiq baş icraçı direktoru Lord Con Filip Braun Azərbaycan üçün çətin bir dövrdə məhz Heydər Əliyevin ölkəyə rəhbərlik etməsi sayəsində investisiya qoyuluşu üçün mövcud risklərin dəf edildiyini və beləliklə, “Əsrin müqaviləsi”nin imzalandığını böyük məmnunluqla xatırladıb. Şirkətin nümayəndələri bu tarixi sazişin ölkəmizin mürəkkəb dövründə Ümummilli liderin qətiyyətli və məharətli siyasəti nəticəsində ərsəyə gəldiyini söyləyib, Azərbaycanın enerji ehtiyatlarının inkişafında müqavilənin rolundan bəhs ediblər.

Qeyd etdiyimiz kimi, görüş zamanı qlobal enerji keçidi nəzərə alınaraq BP-nin Azərbaycanda olan tərəfdaşlarla, o cümlədən SOCAR ilə əməkdaşlıqda, yeni bərpaolunan enerji layihələrinin həyata keçirilməsində maraqlı və qətiyyətli olduğu bir daha diqqətə çatdırılıb, yeni sərmayə qoyuluşu imkanları müzakirə olunub.

Bu məsələlər BP nümayəndə heyəti ilə SOCAR rəhbərliyi arasında keçirilən görüşdə də ətraflı müzakirə mövzusu olub. Görüşdə bp-nin ölkəmizdəki səmərəli fəaliyyətindən, SOCAR ilə bp arasında uzunmüddətli uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edilib. Tərəflər, həmçinin enerji layihələri üzrə mövcud əməkdaşlıq imkanlarını nəzərdən keçirib, insan kapitalı sahəsində təcrübə mübadilələrinin həyata keçirilməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıblar. Sonra Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) nümayəndələri ilə birgə tərəflər arasında Qoşulma Sazişi imzalanıb. Bu sənəd SOCAR-ın və AİŞ-in “Şəfəq” (Sunrise) layihəsinə daxil olmaq niyyətini əks etdirir.



Xatırladaq ki, 1992-ci ildə Azərbaycanla enerji sahəsində fəal əməkdaşlığa başlayan BP şirkəti hazırda ölkəmizdə həyata keçirilən bir sıra dünya səviyyəli neft-qaz layihələrinin operatoru kimi fəaliyyət göstərir. “Azəri-Çıraq-Dərinsulu Günəşli” yataqlar bloku, “Azəri-Mərkəzi-Şərqi”, “Şahdəniz” (1 və 2-ci mərhələlər) yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişləri üzrə layihələr, Səngəçal terminalının inşası və genişləndirilməsi, eləcə də Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasını təmin edən ixrac boru kəmərləri layihələri məhz dünyanın neft nəhəngi sayılan BP şirkətinin operatorluğu ilə reallaşdırılıb. Hazırda isə şirkət Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Şəfəq-Asiman” yatağında kəşfiyyat-qiymətləndirmə işlərini davam etdirir.

“Əsrin müqaviləsi”nin ilkin imzalanmasından ötən 29 il ərzində bp və tərəfdaşları tərəfindən Azərbaycanın neft-qaz sektoruna, təxminən, 84 milyard ABŞ dolları investisiya qoyulub. Bundan əlavə, şirkət ötən müddətdə ölkəmizdə reallaşdırdığı sosial sərmayə layihələrinə, ümumilikdə, təqribən 109 milyon ABŞ dolları vəsait xərcləyib

BP şirkəti ölkəmizdə növbəti layihəsini işğaldan azad olunmuş Şərqi Zəngəzur iqtisadi rayonunda həyata keçirəcək. Məlum olduğu kimi, 2021-ci il iyunun 3-də Azərbaycan Respublikasının Energetika Nazirliyi və BP arasında Zəngilan/Cəbrayıl rayonu ərazisində 240 meqavat gücündə Günəş Elektrik Stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair İcra Müqaviləsi imzalanıb. Müqavilə çərçivəsində əməkdaşlıq günəş enerji layihəsinin texniki və kommersiya aspektində qiymətləndirilməsini, stansiyanın layihələndirilməsini, maliyyələşdirilməsinin təmin edilməsi və yekun investisiya qərarının qəbulu kimi istiqamətləri əhatə edir.

Bir il sonra, 4 iyun 2022-ci il tarixində Azərbaycan Respublikasının Energetika Nazirliyi və BP arasında Cəbrayılda inşa olunacaq 240 meqavatlıq Günəş Elektrik Stansiyası layihəsinin birgə həyata keçirilməsi ilə bağlı növbəti addımların atılması məqsədilə mövcud müqaviləyə Əlavə imzalanıb. Xatırladaq ki, “Bakı Enerji Həftəsi” çərçivəsində Şuşa şəhərində imzalanmış bu sənəd “Şəfəq” Günəş Elektrik Stansiyası layihəsinin reallaşdırılması istiqamətində birgə fəaliyyəti yekunlaşdırmaq üçün görüləcək tədbirləri əks etdirir.

Yeri gəlmişkən, Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov bir qədər əvvəl mətbuata bildirib ki, “Şəfəq” Günəş Elektrik Stansiyasının tikintisi layihəsinin texniki və kommersiya parametrləri, demək olar ki, razılaşdırılıb. Onun sözlərinə görə, adıçəkilən layihənin maliyyə tərəfləri ilə bağlı Energetika Nazirliyi və BP şirkəti arasında razılığa gəlinib.

Qeyd edək ki, gələcəkdə adıçəkilən stansiyada istehsal olunacaq enerji Səngəçal terminalını təmin edəcək. “Şəfəq” Günəş Elektrik Stansiyasının tikintisinin isə, təqribən, iki il ərzində başa çatdırılması nəzərdə tutulur.

***M.YAQUBZADƏ***
***XQ***

# Ermənistan hərbi cinayətlərinin təzminatını ödəməyə məhkumdur

## Azərbaycana vurulan ziyan, hələlik, 300 milyard dollar qiymətləndirilir



(əvvəli 1-ci səhifədə)

Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sənaye və kənd təsərrüfatı obyektləri də tamamilə sıradan çıxarılıb. Əkin sahələrinin müəyyən hissəsi işğalçı tərəfindən əkilib-becərilərək əldə olunan məhsul hesabına qazanılan böyük həcmdə vəsait mənimsənilib. Beynəlxalq Qiymətləndiricilər Assosiasiyasının hesablamalarına əsasən, (mal və mülkün bazar iqtisadiyyatına uyğun olaraq qiymətlərin müntəzəm şəkildə dəyişilməsinə baxmayaraq) Azərbaycan iqtisadiyyatına 300 milyard ABŞ dollarından çox maddi ziyan vurulub.

Azərbaycan Baş Prokurorluğu və Xarici İşlər Nazirliyinin birgə məlumatına əsasən, 1988-ci ildən etibarən Ermənistanın işğalı nəticəsində Qarabağ və Şərqi Zəngəzurda faydalı qazıntı yataqlarından qanunsuz istifadə, eləcə də ekoloji terror nəticəsində ölkəmizə 16,2 milyard manat məbləğində ziyan dəyib. Bundan əlavə, 6 şirkət işğal olunmuş ərazilərdə qanunsuz təsərrüfat fəaliyyəti həyata keçirərək Azərbaycana 306,8 milyon manat məbləğində ziyan vurub.

Yeri gəlmişkən, Prezident İlham Əliyev çıxışlarının birində bu məsələyə toxunaraq bildirib ki, rəsmi Bakı Ermənistanın Qarabağdakı qanunsuz istismarı ilə bağlı bütün hüquqi prosedurlara start verib: "Mən bu haqda Azərbaycan ictimaiyyətini məlumatlandırmışdım. Bir cinayət də cavabsız qalmayacaq. Birincisi, biz dəymiş bütün ziyanı hesablayırıq, bütün şəhər və kəndlərimizin pasportlaşdırılması prosesi gedir. Hər bir binanın, yaxud da ki, o binadan qalan dağıntıların video-foto çəkilişi aparılır. Bu, sübutdur və biz beynəlxalq məhkəmələrə də müraciət etmək əzmindəyik, hazırlıq işləri gedir. Həmçinin Vejnəli qızıl yatağının xarici vətəndaşlar tərəfindən, o cümlədən erməni əsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz o adamların adlarını bilirik. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. Vurulmuş ziyanın təzminatını mütləq ödəyəcəklər".

İkinci Qarabağ müharibəsinin başa çatmasından ötən dövr ərzində 300-dən çox Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb. Eyni zamanda, beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır. Bütün çətinliklərə baxmayaraq, hazırda işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi davam etdirilir.

Bəs bu vəhşilikləri törətmiş Ermənistana ölkəmizə vurduğu maddi-mədəni, iqtisadi zərər nə vaxt ödətdiriləcək? Sualın cavabı ilə bağlı əvvəlcə onu deyək ki, hazırda 30 ilə yaxın müddətdə erməni işğalı altında saxlanılaraq vəhşicəsinə dağıdılan, talan olunan torpaqlarımızda sürətlə geniş miqyaslı quruculuq işləri həyata keçirilir. Erməni vəhşilikləri nəticəsində dağıdılan şəhər və kəndlərimiz hazırda Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə ən müasir şəkildə bərpa olunur. Bununla yanaşı, beynəlxalq ekspertlərin iştirakı ilə Azərbaycana dəyən ziyanın qiymətləndirilməsi aparılır və bu proses artıq yekun mərhələsindədir. Yalnız qiymətləndirmə tamamlandıqdan sonra təzminat ödənilməsi ilə bağlı beynəlxalq məhkəməyə müraciət ediləcəyi bildirilir.

Onu da qeyd edək ki, Azərbaycanın üzləşdiyi belə vandallıq, vəhşilik dünya miqyasında baş verən yeganə hal deyil. Bir sıra ölkələrə qarşı aparılan müharibələrdə də bu cür barbarlıqlar, rəzilliklər müşahidə olunub və həmin qətllər, talanlar, dağıntılarla bağlı təzminatın hesablanması və ödənilməsi ilə bağlı təcrübələr var. Məsələn, Polşa İkinci Dünya müharibəsində Almaniyanın bu ölkəyə vurduğu 1,3 trilyon avro dəyərində zərərə görə təzminat tələbini rəsmiləşdirib. BMT-nin 687 saylı qətnaməsi ilə Körfəz müharibəsindən sonra İraqın Küveytə vurduğu ziyanın ödənilməsi də reallaşdırılıb. Xatırladaq ki, həmin vaxt BMT-nin Kompensasiya Komissiyası tərəfindən dəyən ziyanın məbləği 52,4 milyard dollar həddində müəyyənləşdirilib. Artıq bu vəsaitin 48,7 milyard dolları ödənilib. Suriya münaqişəsi zamanı da dəyən iqtisadi ziyanın kifayət qədər böyük həcmdə–226 milyard dollar olduğu hesablanıb.

Yaxud, başqa bir misal. İkinci Dünya müharibəsində Almaniya və müttəfiqlərinin üzərinə reparasiya (təcavüzkar dövlətin təcavüzə məruz qalan dövlətə (dövlətlərə) vurduğu zərəri pul və ya maddi formada ödəməsini nəzərdə tutan maddi-hüquqi məsuliyyət) yükü qoyulub. Bu qərar 1945-ci ildə Yalta konfransında qəbul olunub. Nəticədə, Almaniyadan keçmiş SSRİ-yə təxminən 400 min dəmir yolu vaqonu yük, 2885 fabrik, 96 elektrik stansiyası avadanlıqları, 340 min maşın, 200 min elektrik mühərriki, 1 milyon 335 min baş heyvan, 2,3 milyon ton taxıl, bir milyon ton kartof və tərəvəz, yarım milyon ton yağ və şəkər, 20 milyon litr spirt, 16 ton tütün göndərilib. Bundan başqa, Humboldt Universitetinin astronomik rəsədxanasından teleskoplar, Berlin metro vaqonları və kruiz laynerləri və digər texnoloji avadanlıqlar reparasiya məhsulu olaraq SSRİ-yə ödənilib. Almaniya tərəfindən digər ölkələrə də reparasiya ödənişi mərhələlərlə həyata keçirilib.

Yuxarıda qeyd etdiyimiz kimi, bütün bunlar Azərbaycanın da beynəlxlaq məhkəməyə müraciət edərək işğalçı Ermənistandan təzminat ödənilməsini tələb etmək hüququna malik olduğunu deməyə əsas verir. Təzminatın isə necə, nə qədər ödəniləcəyi, yaxud nə ilə əvəzlənəcəyi məhkəmənin qərarından sonra müəyyənləşdiriləcək məsələdir. Hazırda Beynəlxalq Arbitraj tərəfindən Ermənistanın Azərbaycana vurduğu zərərin dəyərinin dəqiq hesablanması və işğalçının təzminat ödəməsi ilə bağlı məsələlər üzərində iş aparılır.

Maraqlıdır, beynəlxalq hüquq bu məsələ ilə bağlı Azərbaycana hansı imkanlar tanıyır? Ermənistanın Azərbaycana vurduğu ziyanı ona ödətdirmək mümkün olacaqmı? Bunun üçün Azərbaycan tərəfi hansı mexanizmdən istifadə etməlidir?

Qeyd edək ki, işğal olunmuş ərazilərdə erməni vandallarının özbaşınalığı, tarix və mədəniyyət abidələrinin qəsdən məhv edilməsi silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyasına, 1992-ci Avropa Konvensiyasına, UNESCO-nun 1972-ci il Konvesiyasına ziddir. Ermənistanın Qarabağı işğal etməklə dövlətimizə vurduğu maddi ziyanı tam şəkildə hesablamaq mümkün olmasa da, ilkin bir rəqəm əldə olunub.

Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq, Azərbaycanın Ermənistana qarşı dövlətlərarası iddiasının əsasını Qarabağ bölgəsinin zəngin hidroenergetika ehtiyatlarının işğalçı dövlət tərəfindən qanunsuz istismarı təşkil edir. Respublikamız bu əsasda 2023-cü il fevralın 27-də işğalçı ölkəyə qarşı dövlətlərarası arbitraj prosesini başladıb. Xatırladaq ki, arbitraj işinin məqsədi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisində Ermənistan tərəfindən enerji ehtiyatlarının 30 ilə yaxın bir dövr ərzində qeyri-qanuni istismarı və qəsb edilməsinə cavab olaraq haqqı-ədaləti və qəsbkarın təzminat ödəməsini gerçəkləşdirməkdən ibarətdir.

Xarici İşlər Nazirliyinin bununla bağlı yaydığı məlumata görə, Azərbaycan tərəfi Ermənistana təqdim edilmiş Arbitraj Bildirişində 1991-ci ildən 2020-ci ilə qədər Ermənistanın ərazilərimizin 30 ilə yaxın qanunsuz işğalı dövründə ölkəmizin enerji resursları üzərində suveren hüquqlarını pozduğuna görə bu dövlətdən təzminat və maliyyə kompensasiyası tələb edib.

Məlumatda, həmçinin bildirilir: "Azərbaycanın Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq, Ermənistana qarşı dövlətlərarası iddiasının əsasını Qarabağ bölgəsinin zəngin hidroenergetika ehtiyatlarının Ermənistan tərəfindən qanunsuz istismarı təşkil edir. Qarabağ bölgəsində Azərbaycanın daxili su ehtiyatlarının 25 faizinin cəmlənməsi, buranı su elektrik enerjisi istehsalı üçün optimal məkana çevirib.

Ermənistanın qeyri-qanuni şəkildə istismar etdiyi hidroenergetika obyektlərinin ən böyüyü Tərtərçayın üzərində inşa edilmiş Sərsəng su anbarında yerləşən Tərtər su elektrik stansiyasıdır (Tərtər SES). Ermənistan Azərbaycanın suveren ərazilərinə hərbi təcavüzünün tərkib hissəsi kimi, 1994-cü ildə Sərsəng su anbarını və Tərtər SES-i ələ keçirib. Ermənistan, həmçinin işğal zamanı Azərbaycanın suveren ərazisində icazəsiz, ən azı, əlavə 37 su elektrik qurğusu tikib".

Xarici İşlər Nazirliyinin məlumatında, həmçinin Ermənistanın işğal zamanı İrəvan istilik elektrik stansiyasından istifadə məqsədilə Azərbaycanın Tərtər rayonunun Çardaqlı kömür mədənini qanunsuz istismar etdiyi bildirilib. Qeyd olunub ki, Ermənistan Azərbaycanda Yevlaxı Naxçıvan ilə birləşdirən təbii qaz kəməri kimi mövcud enerji tranzit qurğularını sıradan çıxarıb. Beləliklə, işğal nəticəsində Naxçıvana qaz təchizatı kəsilmişdir.



Azərbaycanın Ermənistandan təzminat tələb etmək haqqı İslam Əməkdaşlıq Təşkilatı (İƏT) tərəfindən ənənəvi olaraq hər il keçirilən sessiyalarda qəbul olunan müvafiq qətnamələrlə bölgədəki son vəziyyət nəzərə alınmaqla yeni müddəalar əsasında da təsdiqlənib. Elə təşkilatın ötən il martın 22-23-də Pakistan İslam Respublikasının İslamabad şəhərində reallaşan 48-ci iclasında da bu məsələ diqqət mərkəzində saxlanılıb. Sessiyada Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri ilə bağlı siyasi, iqtisadi və mədəni məsələləri əhatə edən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması", "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi", "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycanın ərazilərində İslam mədəniyyətinə aid tarixi və mədəni abidələrin dağıdılması" və "Xocalı qırğınının qurbanları ilə həmrəylik" adlı dörd qətnamə qəbul edilib. Tədbirdə Ermənistanın beynəlxalq hüququ pozaraq bütün minalanmış ərazilərin dəqiq xəritələrini və minalanan sahələrin yerləşdiyi yerlərə dair digər məlumatları təqdim etməkdən davamlı boyun qaçırması da pislənilib.

Təəccüblüdür ki, Ermənistanın torpaqlarımızı işğalda saxladığı 30 il ərzində dünya gücləri və beynəlxalq təşkilatlar tərəfindən bu qəsbkarlığa ikili standartla yanaşıldığı kimi, erməni faşizminin törətdikləri dəhşətli vandallıqlara da bir çox hallarda laqeyd münasibət bəslənilib. Hətta Avropa İnsan Hüquqları Məhkəməsi də bu məsələdə ədalətin müdafiəsinə ikili standartlarla yanaşmaqdan belə çəkinməyib. Belə ki, 2017-ci il dekabrın 12-də adıçəkilən məhkəmə Ermənistandan azərbaycanlı qaçqınların (Çıraqov və başqaları), habelə ölkəmizdən erməni qaçqın Sarkisyanın şikayətləri üzrə qərar çıxarıb. Avropa Məhkəməsi Laçın rayonunun sakinləri Çıraqov, Cəbrayılov, Həsənov, Paşayev və digər iki şəxsin hüquqlarının pozulduğu qənaətinə gəlib, iddiaçıların 1992-ci ildə mülkiyyətlərinin ermənilər tərəfindən ələ keçirildiyini, bundan sonra vətənlərinə qayıda bilmədiklərini təsdiqləyib. Bununla da Ermənistan hakimiyyəti təqsirli bilinib və üzərinə hər bir iddiaçı mənəvi ziyana görə 5 min avro və bütün iddiaçılara ümumi xərclərə görə 28,642 funt sterlinq ödəmək öhdəliyi qoyulub. Eyni zamanda, məhkəmə həmin vaxt maddi ziyanı hesablamağın mümkünsüzlüyünü vurğulayıb.

Yeri gəlmişkən, 1992-ci il mayın 18-də qəsbkarın işğalına məruz qalan Laçında Qayğı qəsəbəsi, 120 kənd, 13 min 745 fərdi yaşayış evi, 300-dən artıq tarixi abidə, 217 mədəniyyət ocağı, 150 təhsil müəssisəsi, 142 səhiyyə obyekti, 48 sənaye, 63 kənd təsərrüfatı, 460 ticarət şəbəkəsi qəsbkar tərəfindən yer üzündən silinib. İşğal zamanı şəxsi və ictimai təsərrüfatların 135 min başa yaxın mal-qarası Ermənistana aparılıb. Hesablamalara əsasən, rayona, ümumiyyətlə, 7,1 milyard ABŞ dolları məbləğində maddi ziyan vurulub.

Nə qədər qəribə səslənsə də, Avropa Məhkəməsi elə həmin gün ailəsi 1992-ci ildə Qarabağ münaqişəsi zamanı Gülüstan kəndindən qaçmaq məcburiyyətində qalan ərizəçi Sarkisyan barəsində də, demək olar ki, eyni qərar çıxarıb, Azərbaycan hakimiyyətinin Sarkisyanın ailəsinə mənəvi ziyana görə 5 min avro və ümumi xərclər üçün 30 min avro ödəməli olduğu barədə qətnamə qəbul edib.



Əslində, bu, Avropa İnsan Hüquqları Məhkəməsinin məsələyə ikili standartlarla yanaşmasının bariz ifadəsidir. Başqa sözlə, Avropa Məhkəməsinin, ümumiyyətlə, digər nüfuzlu beynəlxalq təşkilatların da müəyyən qərar və qətnamələrində təcavüzkar Ermənistanla ərazilərinin 20 faizi işğal altında qalan, bir milyon 200 min nəfər qaçqın və məcburi köçkünü olan Azərbaycana eyni münasibət (əslində, təcavüzkarın tutduğu qeyri-konstruktiv mövqenin dolayısı ilə dəstəklənməsi) bəslənilir.

Ekspertlər onu da bildirirlər ki, "Çıraqov və digərləri Ermənistana qarşı" adlı şikayət Azərbaycandan olan məcburi köçkünlərin Avropa Məhkəməsinə göndərilən yeganə müraciət deyil. 2005-ci ildən başlayaraq Avropa Məhkəməsinə azərbaycanlı qaçqın və məcburi köçkünlərin Ermənistana qarşı irəli sürdüyü xeyli sayda ərizə təqdim olunub. İddiaçı və onların nümayəndələrinin ərizələri yalnız mülkiyyət hüququ, özəl və ailə həyatına hörmətlə bağlı deyil, həm də işgəncələrin qadağan olunması və yaşamaq hüququnun pozulması, eləcə də insanlığa qarşı cinayət kimi tanınan Xocalı soyqırımı ilə bağlı olub. Lakin sözügedən ədalət institutu tərəfindən soydaşlarımızın pozulmuş insan hüquqlarının bərpa olunmasına dair müraciətlər müxtəlif bəhanələr əsas gətirilərək baxılmayıb.

İkili standartlarla yanaşmaya dair digər bir misal. Özü də bu misal dünya güclərinin erməni faşizminin törətdiyi vəhşiliklərə tamaşa edib susmaları, laqeyd qalmaları, dolayısı ilə vəhşilikləri təsdiqləmələri, həm də ölkələrinin qərəzli mövqeyini bir daha nümayiş etdirmələrinin ifadəsidir. Azərbaycandakı diplomatik korpusun nümayəndələri, o cümlədən səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri, Prezident Administrasiyasının rəsmisinin müşayiəti ilə işğaldan azad edilən rayonlara səfərləri zamanı dəfələrlə bunun şahidi olmuşuq.

Belə səfərlərin birində ermənilərin törətdiyi əməlləri şərh etməkdən yayınanlar arasında fransalı attaşe polkovnik-leytenant Flavien Lane jurnalistlərin sualları qarşısında susmaqla həm ermənilərin vəhşiliklərini təsdiqləyib, həm də ölkəsinin qərəzli mövqeyini bir daha nümayiş etdirib. Yaxud Avropa İttifaqı nümayəndəsinin erməni vandalizminə, sadəcə, müharibə donu geyindirməklə bu vəhşiliyi şəxsən vurğulamaması, eləcə də ABŞ hərbi attaşesinin fürsətdən istifadə edərək münaqişənin həllində ölkəsinin həmsədr olduğu Minsk Qrupunu önə çıxarması və erməni vəhşiliyinə tamamilə göz yuman fransalı hərbi nümayəndənin mövqeyi bir sual doğurur: Erməni vandalizmini beynəlxalq miqyasda sübuta yetirməyə çalışdığımız halda, beynəlxalq təşkilatların nümayəndələrinin birmənalı olmayan mövqeləri nəyə işarədir? Yaxud, bu müəmmalı mövqe və susqunluq erməni vandallığı üçün tələb etdiymiz kompensasiyanın ödənilməməsi üçün ilkin ismarıcdırmı? Ümumiyyətlə, bu sükut və qeyri-müəyyən mövqe Azərbaycan üçün nə vəd edir?

Əslində isə Fransa kimi neçə-neçə ölkə 30 ilə yaxın müddət ərzində münaqişənin həlli ilə bağlı heç bir əməli addım atmayıb, Ermənistanın tərəfini saxlayıb və özünün beynəlxalq missiyasına kölgə salıb. Vətən savaşından sonra işğaldan azad edilən ərazilərə gedib erməni faşizminin törətdiyi vəhşilkləri sükutla seyr edən belələrindən ədalətli münasibət gözləmək sadəlövhlük olardı. Şübhəsiz, onların əvvəlki qərəzli mövqeləri bu gün də dəyişməyib. Həmin dövlətlər bu gün də həyata keçirdikləri xarici siyasətdə, belə qərəzli, ədalətsiz münasibəti nümayiş etdirməkdən çəkinmirlər.

Lakin bunlar heç də o demək deyil ki, Azərbaycan beynəlxalq miqyasda haqlı mövqeyini müdafiə etməməlidir. Yox, sonadək mübarizə aparılmalı, haqq işi davam etdirilməlidir. Bəli, kimlərinsə, prosesə qeyri-adekvat münasibət sərgiləməsi beynəlxalq birlik qarşısında Azərbaycanın təzminat davası açmasına heç bir maneə törədə bilməz. Çünki Ermənistanın həm beynəlxalq birlik qarşısında, həm də BMT-nin qətnamələrində işğalçı dövlət kimi tanınması, sonrakı proseslərdə də Azərbaycan üçün üstünlük yaradır. Hətta, Avropa Şurasının da bununla bağlı bir sıra qətnamələri var. ATƏT-in Lissabon sammitində də Ermənistan 53 dövlət tərəfindən işğalçı dövlət kimi tanınıb.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Türküstanı gəzə-gəzə

# Buxaranın 7 müqəddəs piri

**Qədim bir rəvayətdə deyilir ki, bütün müsəlman ölkələrinə Allahın bərəkəti göydən yağır, Buxarada isə yerdən göyə ucalır. Çox güman ki, orta əsrlərdə Buxarada 360 məscidin və 80 mədrəsənin mövcudluğu ilə bağlı yaranıb bu kəlam.**



Həmçinin "İslam dünyasının ulduzu" və "Orta Asiyanın müqəddəs şəhəri" titullarını daşıyan Buxarada dünya şöhrətli alimlər, mütəfəkkirlər, ilahiyyatçılar, şairlər yaşayıb yaradıblar. Təbabət, psixologiya, riyaziyyat, məntiq, fizika, musiqi, poeziya, zoologiya sahələrində maraqlı tədqiqatları olan, "Tibb qanunu" əsərinin müəllifi, filosof, təbib, astronom Əbu Əli İbn Sina, ilahiyyatçı alim İmam Əl-Buxari, psixoloq, nəzəriyyəçi Əl-Həsən əl-Basri, tarixçi alimlər Məhəmməd Əmin-i Buxari və Abdulla Nəsrullahi, X əsr alimi Əbu Həfs Kəbir, yazıçı və şair Vasifi, həmçinin soydaşlarımız, böyük filosoflar Yusif Qarabağı və onun müəllimi Mirzəcan Şirazi və başqalarının həyatı Buxarayi-Şəriflə bağlı olub. Təməli bizim eradan əvvəl VI əsrdə qoyulan Buxara Orta Asiyanın qədim şəhərlərindən biri adını fəxrlə daşıyır.

İslam dünyasında Buxaranı İslam dininin müqəddəs şəhərinə çevirən sufi alimlərin adı da çox məşhurdur. Buxarada həm də Nəqşibəndi qardaşlığına aid olan yeddi müqəddəs pir yerləşir.

İlk müqəddəs pir Mərkəzi Asiya sufi məktəbinin təməlini qoyan Abdulla Abd-Əl-Xalik Qijduvaninin məzarıdır. Yusif-əl-Həmədaninin dini baxışlarını davam etdirən Əl-Qijduvani Xacəqan təriqətinin əsasını təşkil edən mənəvi-dini nəzəriyyənin səkkiz qaydasını fopmalaşdırıb, səssiz zikr etmənin əsasını qoyub. Onun fikrinə görə, imamlıq edən hər bir kəsin mütləq başqa bir peşəsi də olmalıdır. Yüksək mənəviyyatlı insan yetişdirilməsi Əl-Qijduvaninin əsərlərinin ana xəttini təşkil edir.

İkinci müqəddəs məkan Xoca Arif Rivqarinin məzarıdır. Sufilik yoluna gənc yaşlarında qədəm qoyan Rivqari 19 yaşında artıq fəlsəfə dərsləri verirdi. Onun "Nafaxat ul-uns" və "Arifnamə" əlyazmalarında məşhur sufinin həyatı əks olunub. Bu əsərlər göstərir ki, müqəddəs Xoca Arif Mohi tobon adlandırılan Ravqari Xacəqan təriqətinin başçısı olan Şeyx Abdulxalik Qigduvaninin ən layiqli davamçısı olub, Qijduvaninin ölümündən sonra qardaşlığa başçılıq edib.

Üçüncü pir Babkent rayonunun Əncirbağ kəndində yerləşən Xoca Mahmud Əncir Fəqnəvinin məzarıdır. Dövrünün məşhur sufilərindən olan Fəqnəvi bağçılıqla, dülgərliklə məşğul olub. Fəqnəvi Mavərənnəhrin nüfuzlu sufilərindən sayılıb. Dövrün ehtiyaclarına müvafiq olaraq açıq zikri həyata keçirən Fəqnəvidən bunun səbəbini soruşanda deyib: "Qoy yatanlar oyansın".

Fəqnəvinin məzarının yaxınlığında gözəl bir mavzoley ucaldılıb, məscid tikilib. Məscidin həyətindəki quyunun suyu müqəddəs hesab olunur.

Dördüncü pir Xoca Əli Romitaninin məzarıdır. Xoca Əli Romitani 1195-ci ildə Kurqanda dünyaya göz açıb.Toxuculuqla məşğul olub. Xacəqan sufi məktəbinin ən nüfuzlu simalarından sayılıb. Yüksək mənəvi keyfiyyətlərə malik olan Romitani xalq arasında Azizon (hörmətli şeyx) deyə çağırılıb. Hətta monqol xanları da ona inanaraq islamı qəbul etmişdilər.Deyilənə görə, Romitani insanların fikrini oxuya bilib, həkimlik edib. Saysız-hesabsız şagirdləri arasında öz oğulları da olub. Kiçik oğlu Xoca İbrahimə öz davamçısı olmağı vəsiyyət edib.

Romitaninin "İki halda – danışarkən və yeyərkən özünə diqqət et" kəlamı indi də xalq arasında işlədilir.

Beşinci pir Xoca Məhəmməd Babai Sammasinin məqbərəsidir. Xacəqan məktəbinin ənənələrini davam etdirən məşhur sufi Sammasi Xoca Əli Romitaninin şagirdi və davamçısı olub. Bahauddin Nəqşibəndinin həyata gələcəyini məhz o, dilə gətirib: "Vaxt keçəcək, onun ətri bütün dünyaya yayılacaq və o – "muşkil quş" "çətinlikləri dəf edən" olacaq.

Sammasinin Xacəqan sufi məktəbinin inkişafında, təsəvvüf texnikasının işlənməsində əvəzsiz rolu var.

Altıncı pir Xoca Səid Əmir Kulal Buxarinin memorial kompleksidir. Sənəti dulusçuluq olan Kulal hələ həyatda ikən "Böyük" təxəllüsü daşıyırdı. Bəzi mənbələrə görə, Səid Əmir Kulal 1363-cü ildə hökmdar Əmir Teymurla da görüşüb. Yüzlərlə davamçısı olan şeyx vaxtının çoxunu gənclərlə söhbətdə keçirir, onlara məsləhətlər verirdi. Gəncləri ən kiçik səhvlərdən belə çəkindirən şeyx Məhəmməd Peyğəmbərin sözləriini misal çəkirdi:" İnsanları hər gün etdiyi xırda günahlar böyük günahlara çevrilir və onları cəhənnəmə götürür".

Səid Əmir Kulalın davamçılarından biri də Bahauddin Məhəmməd Nəqşibəndi olub. Nəqşibəndi sufiliyin əsasları, düzgün zikr edilməsi, Xacəqan məktəbinin ənənələri ilə məhz Əmir Kulal tanış edib.

Bahauddin Nəqşibəndi memorial kompleksi Buxaranın 12 kilometrliyində yerləşən sonuncu yeddinci pirdir. Komp-leks "sufiliyin müəllimi", XIV əsr Orta Asiya sufi məktəbinin nəhəng simalarından biri Bahauddin Nəqşibəndinin şərəfinə ucaldılıb. Nəqşibəndi naxış vuran deməkdir və Nəqşibəndiyə sufi qardaşlığının adı məhz Bahauddin Nəqşibəndinin sənətinin naxış vuran olması ilə bağlıdır.

Əbdürrəhman Cami yazırdı ki, Bahauddin heç vaxt qul saxlamayıb. Bunun səbəbini soruşanda Bahauddin deyib ki, eyni vaxtda həm Allahın, həm də ağanın qulu olmaq mümkün deyil. Ölümündən sonra Bahauddin "müqəddəs" elan edilib, Buxaranın himayədarı hesab olunub.

Nəqşibəndi belə hesab edib ki, sufi olan kəs öz əməyi ilə bir parça çörəyini qazanmalıdır. Özü bir neçə sənətə yiyələnib. Toxuculuq, dulusçuluq, dəmir üstə döymə ilə məşğul olub. Nəqşibəndi ardıcıllarını hər hansı bir sənət sahibi olmağa, torpağı əkib-becərməyə, ticarətlə məşğul olmağa çağırıb. Mənəvi təmizlik, cah-cəlaldan uzaq yaşamaq, hakim dairələrlə əlaqədən qaçmaq, çox az adamla ünsiyyət saxlamaq, şəriət qanunlarına əməl etmək onun prinsipləri olub.

Bu gün də müqəddəs sufinin məzarını ziyarət edənlərin arası kəsilmir. Deyilənə görə, bu mavzoleyə üç dəfə toxunmaq Məkkəyə Həcc ziyarətinə getməyə bərabər sayılır.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Buxara**

Tarixdən gələn səs

# Türklər ədalətli və mərhəmətli xalqdır

**Türk xalqları uzun əsrlər ərzində böyük bir coğrafi məkanda 128 dövlət qurublar. Heç bir xalqa bu qədər dövlət qurmaq nəsib olmayıb. Bunu yalnız türklər bacarıblar.**




Təbii ki, hər bir xalq azad yaşamaq, öz müstəqil dövlətini qurmaq arzusundadır. İstər-istəməz sual meydana çıxır: Dövlət qurmaq üçün hansı xüsusiyyətlər tələb olunur?

**Ekspert rəyi**

**Minaxanım ƏSƏDLİ, Azərbaycan Turizm və Menecment Universitetinin professoru, kulturoloq:**



– Bütün ruhu, əqli, zəkası ilə Böyük Turançı olan Əli bəy Hüseynzadə "dildə, fikirdə və əməldə" birliyə çağırırdı. Bu gün türk xalqları arasında bütün sahələrdə əlaqələri. xüsusilə, mənəvi birliyi gücləndirmək hava-su kimi zəruridir.

Müasir texnologiyalar dünyanı "qlobal bir kənd"ə çevirib. Bu "kənd"in sakinləri planetin ən uzaq guşəsində nə baş verirsə, onu bir anın içində görür və reaksiya verir. Bəzən isə zəif mədəniyyətlərin deqradasiyası, hətta məhv olaraq aradan çıxması baş verir.

Böyük Atatürk demişdir ki, milli-mənəvi dəyərlərinə sahib çıxmayan xalqlar başqa millətlərin qurbanına çevrilə bilər. Türk xalqları qədim və zəngin mədəniyyətə sahibdirlər. Bu zəngin irsi qorumaq və artırmaq bugünkü nəslin, xüsusilə, gəncliyin üzərinə düşür.

İndi dünyadakı bütün türk dövlətləri və xalqları arasında siyasi əlaqələrin gücləndirilməsi nə qədər böyük əhəmiyyət kəsb edirsə, bir o qədər, bəlkə də ondan da çox türk qövmləri üçün mədəni əlaqələrin inkişafını təmin etmək vacibdir.

Mən İçərişəhərdə Özbəkistan, yaxud Qazaxıstandan gələn turistləri görəndə dünya qədər sevinirəm. Yeri gəlmişkən, məqam düşəndə tələbələrimə, dostlarıma mütləq Buxara və Səmərqəndi ziyarət etmələrini tövsiyə edirəm.

Sözümün canı budur ki, Turan ellərinin bəşəriyyətə bəxş etdiyi böyük töhfələri dərindən öyrənməli və onların bütün dünyada tanınmasına çalışmalıyıq. Axı, biz birlikdə güclüyük!

Yadımdadır, türk tarixinin dərin bilicisi, fədakar tədqiqatçı, görkəmli pedaqoq-jurnalist, professor Şirməmməd Hüseynov hesab edirdi ki, bunun üçün üç mühüm amilin bir yerdə olması vacibdir.

Bunlar aşağıdakılardır: Birincisi, xalqın dövlətçilik qabiliyyəti və istedadı olmalıdır. Türklərdə bu istedad və qabiliyyət yüksək səviyyədə olub ki, onlar çox sayda dövlət quraraq, dillərini, adət-ənənələrini, mədəniyyətlərini qoruyub saxlaya biliblər.

İkinci əsas şərt qəhrəmanlıq və fədakarlıqdır. Yəni, təkcə istək və arzu etmək azdır. Gərək millət böyük hədəflərə çatmaq üçün fədakarlıq və qəhrəmanlıq nümayiş etdirə bilsin. Türk toplumları bunu yaxşı bacarıblar.

Bəhs edəcəyimiz üçüncü amil ilk baxışda bir qədər sadəlövh görünə bilər. Lakin üçüncü amil əvvəlki şərtlərdən heç də az əhəmiyyətli deyil. Bu, insaflılıq və mərhəmət hissidir. Türklər qazandıqları torpaqlarda insaflı və mərhəmətli olublar. Bu, danılmaz həqiqətdir.

Bununla bağlı çox sayda misal çəkmək mümkündür. 2016–2018-ci illərdə Türkiyənin baş naziri vəzifəsində çalışan nüfuzlu siyasətçi Binəli Yıldırım müsahibələrinin birində deyib ki, yeddi əsrdən artıq bir dövrdə üç qitədə bərqərar olmuş Osmanlı Türkiyəsi qüdrətli bir imperiyaya sahib olsa da, heç vaxt tabeliyində olan xalqların dillərini, dini inanclarını dəyişdirməyə fikrində olmayıb.

Bəli, Osmanlının nəzarətində olan ərazilərdə məskunlaşan müxtəlif xalqlar əmin-amanlıq və sülh içində yaşayıblar. Bir çox yəhudi alimləri dəfələrlə qeyd edirlər ki, orta əsrlərdə yalnız Türkiyənin nəzarətində olan torpaqlarda yəhudilər özlərini tam əmin-amanlıq və təhlükəsizlik şəraitində hiss ediblər.

Çağdaş tariximizdə də türklər üçün azadlıq, ədalət və mərhəmətlilikdən böyük dəyər yoxdur. Xahiş edirəm aşağıdakı məqama diqqət yetirin: Türklər ədaləti təkcə özləri üçün tələb etmirlər, onlar bütün dünyanı ədalətli görmək istəyirlər.

Prezident Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür!" ifadəsini planetimizdə az-çox siyasətlə məşğul olan insanlar arasında eşitməyən və bu cəsarətli fikri alqışlamayan az adam tapılar. Ankara yeni, daha ədalətli dünya düzəni üçün çalışır. Bunu mütərəqqi bəşəriyyət görür və məmnun qalırlar.

Son onillər ərzində dünyamız BMT Təhlükəsizlik Şurasının (TŞ) beş daimi üzvünün sayın R.T.Ərdoğanın sözləri ilə desək, "dodaqlarından çıxan qərarlarla" idarə olunur. Planetimizdə 2 milyarda yaxın müsəlman var. Onlardan üç yüz mindən çoxu türkdür. Təəssüf ki, heç bir müsəlman dövləti BMT-nin TŞ-də təmsil olunmayıb.

Bu gün Türkiyə bütün dünyada böyük nüfuz sahibidir. Hazırda tarix səhnəsinə yeni sivilizasiyanın inamlı addım səsləri eşidirlir. Bu, elmə, tərəqqiyə daim açıq olan, yüksək mənəvi-əxlaqi dəyərləri özündə ehtiva edən türk sivilizasiyasıdır.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Qarabağ sevdalı qazax yazıçısı

**Qazaxıstanlı yazıçı-publisist Nasiha Kumarqızı ilə "Facebook"da tanış olmuşam. Hiss edirdim ki, tanınmış qazax yazıçısı Azərbaycan tarixinin və mədəniyyətinin heyranlarındandır. Onun xalqımızın Qarabağla bağlı haqq işini qətiyyətlə müdafiə etməsi, ermənilərin məkrli niyyətlərini qətiyyətlə ifşa etməsi diqqətimdən yayınmırdı.**



Ondan da xəbərim vardı ki, Nasiha xanımın iki il əvvəl rus və qazax dillərində nəşr etdirdiyi "Qarabağ: evə uzun yol" kitabı oxucular arasında, xüsusilə, böyük əks-səda doğurub. Əsər əvvəlcə müəllifin anadan olduğu Almatıda, sonra Qazaxıstanın bir çox böyük şəhərlərində geniş müzakirə olunub.

Qeyd etmək lazımdır ki, sözügedən kitab ölkəmizin alim və ziyalıları arasında da dərin rəğbət hissi doğurub. AMEA-nın Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi Vüqar Əliyev də qazaxıstanlı yazıçı-publisistin yaradıcılığını yaxından izləyir.

O, bu barədə söz düşəndə bildirdi ki, əsərin səhifələrində Qarabağın uzaq və yaxın keçmişi əks olunmaqla bərabər, müəllifin Qarabağa, onun mədəniyyət mərkəzi olan Şuşaya olan dərin sevgisi özünü büruzə verir.

Maraqlıdır ki, Nasiha xanımın Azərbaycanla bağlı ilk kitabını rus dilində yazıb nəşr etdirdiyi "Bakı qazaxıstanlı xanımın gözü ilə" adlanır. Yeri gəlmişkən, bu əsərin çox maraqlı tarixçəsi var. Müəllif bu barədə danışanda dedi ki, o, 2017-ci ilin yayında Kislovodskidə istirahət etmək üçün "Mineralnıye vodı" şəhərinə uçan təyyarəyə bilet almışdı. Lakin birdən-birə özü üçün də gözlənilmədən marşrutu dəyişib. Hansısa bir daxili duyğu onda Bakı ilə yaxından tanış olmaq arzusu yaradıb.

Beləcə, Nasiha xanım Azərbaycan paytaxtına gəlib, "elə ilk gündən zümrüd gözlü Xəzərin sahilindəki füsunkar şəhərə, onun halal, saf qəlbli sakinlərinə bərk vurulub".

O vaxtdan N.Kumarqızı ölkəmizin yaxın dostuna çevrilib. Bu illər ərzində Azərbaycan təbiətinin gözəlliklərindən böyük həvəslə yazmaqla işini bitmiş hesab etməyib, fədakarcasına xalqımızın Qarabağ nisgili barədə ağrılarını da qələmə alıb. Xüsusilə, erməni qaniçənlərinin Xocalı qətliamı zamanı törətdikləri vəhşiliklər ona ağır təsir göstərib. Bu barədə Nasiha xanım belə deyir:

– O məşum hadisə barədə düşünəndə insanın damarında qanı donur. Xocalı təkcə türk dünyasının deyil, bütün bəşəriyyətin faciəsidir. Bu faciə ilə bağlı qələmə aldığım məqalələrdə hər dəfə bunu məxsusi olaraq qeyd etməyi özümə borc bilirəm ki, Xocalı qatilləri mütləq Beynəlxalq Haaqa Məhkəməsi qarşısına çıxarılaraq layiqli cəzalarına almalıdırlar.

Yeri gəlmişkən, Nasiha xanım Xocalı soyqırımına həsr olunmuş məqalələrə görə erməni millətçiləri tərəfindən dəfələrlə kəskin hədələrə və təzyiqlərə məruz qalıb. Lakin, bu, onu heç vaxt qorxutmayıb və bu gün də qorxutmur, öz təbirincə desək, çünki həqiqəti yazır.

Nasiha xanım 2020-ci ilin payızında 44 günlük şanlı Vətən Müharibəsində Azərbaycanın igid əsgər və zabitlərinin Şuşanı azad etməsi xəbərini sonsuz sevinc hissilə qarşılayıb, bu barədə sosial şəbəkələrdəki paylaşımlarında qəlbinin ən ülvi hisslərini dilə gətirib.

2020-ci il aprelin 16-da ona çoxdan arzuladığı xoşbəxtlik – Şuşanı öz gözləri ilə görmək səadəti nəsib olub. O, bu barədə ürəkdolusu ilə söz açdı:

– Bu, mənim həyatımın ən xoşbəxt anları idi. Şuşa təsəvvür etdiyimdən də qat-qat gözəl və ecazkardır. Bu şəhərin elə bir qeyri-adi aurası var ki, buranı bir dəfə ziyarət edən mütləq bir də gəlmək istəyir.

Yeri gəlmişkən, qazaxıstanlı yazıçının Birinci Qarabağ müharibəsinin veteranları arasında çoxlu dostları var. Məhz onlardan belə bir faktı öyrənib ki, qazaxıstanlı zabit Erbol Barımbəyov İkinci Qarabağ müharibəsi zamanı könüllü olaraq Azərbaycana gəlmiş, erməni yaraqlılarına qarşı bir çox ağır döyüşlərdə iştirak etmiş və qəhrəmancasına şəhid olmuşdur.

Nasiha xanım hər dəfə Bakıya gələndə Erbol Barımbəyovun İkinci Şəhidlər xiyabanındakı məzarını ziyarət edir, üzərinə təzə gül-çiçək dəstələri qoyur.

Sonuncu dəfə o, Erbolun xatirəsini yad etmək üçün xiyabana şəhidin doğmaları ilə birlikdə gəlmişdi. Burada keçmiş döyüş dostları da toplaşmışdı. O gün dostluq və qardaşlıqla bağlı ən şirin və kövrək xatirələri dil açıb danışdı...

***M.HACIXANLI***
***XQ***

# Murad Avezov: "Birlikdəyik"

**Müasir qazax ədəbiyyatının tanınmış simalarından olan Murat Avezovun 80 illik yubileyi münasibətilə TÜRKSOY və Qazaxıstan Türkiyədəki səfirliyinin birgə əməkdaşlığı ilə Ankarada Murad Avezovun və "Birlikdəyik" kitabının təqdimatı keçirilib.**




Tədbirdə Qazaxıstan Respublikasının Ankaradakı səfiri Yerkebulan Sapiyev, Murad Avezovun qızı Alua Avezova, Murat Avezov adına Mədəniyyət Mərkəzinin direktoru Diyar Konayev, Ankara Hacı Bayram Vəli Universitetinin müəllimi professor Hülya Kasapoğlu Çengel və digər ziyalılar çıxış ediblər.

TÜRKSOY-un baş katibi Sultan Raev Murad Avezovun qazax və qırğız xalqının ortaq yazarı olduğunu və hər iki ölkədə çox sevildiyini bildirib. Avezov son dərəcə istedadlı tərcüməçi kimi tanınır. Belə ki, türk dünyasının ortaq dəyəri sayılan görkəmli yazıçı Çingiz Aytmatovu dünya oxucusuna yaxından tanıdılmasında yazıçının əksər əsərlərinin tərcüməçisi Murat Avezovun böyük rolu olmuşdur.

Tədbirdə Murat Avezovun TÜRKSOY-un dəstəyilə türk dilinə tərcümə olunmuş "Birlikdəyik" kitabının təqdimatı olub.

Çıxış edənlər hər biri böyük məmnunluq hissilə xatirələr ilə əlaqədar tədbirə qatıla bilməyən Murat Avezovun mənalı həyatı və zəngin yaradıcılığı barədə səmimi ürək sözlərini dilə gətiriblər.

***XQ***

Azərbaycan kinosu – 125

# Səssiz kinomuzun "Bismillah"ı

## Bu film azərbaycanlı kinorejissorun ilk ekran işi idi



**Azərbaycan ədibləri cəhalətlə mübarizə aparan çoxlu əsərlər yaradıblar. Cəlil Məmmədquluzadənin "Ölülər", Nəriman Nərimanovun "Pir", Əbdürrəhim bəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları" və digər əsərlər xalqın xurafatdan ayılması amalına xidmət edib. Milli kinomuzda da bu mövzu əksini tapıb.**

Abbas Mirzə Şərifzadənin 1925-ci ildə ekranlaşdırdığı "Bismillah" filmi yuxarıda bəhs olunan məqsədə xidmət edən əsərlərdəndir. "Bismillah" ilk azərbaycanlı kinorejissorun ekran işi hesab edilir. Düzdür, əvvəlcə A.M.Şərifzadə bu filmi ekranlaşdırmaq istəməyib. Kinosalnaməçi Aydın Kazımzadənin araşdırmasına görə, buna səbəb "Allahsızlar Cəmiyyəti"nin fəaliyyəti olub. Dövrün ideoloji tələbi din əleyhinə film çəkilməsi idi. Lakin Şərifzadə Allahsız olmadığını bildirib. Daha sonra film yalançı mollaların fəaliyyətinə yönəldilib və böyük sənətkar filmi çəkməyə razılıq verib.

Filmin məzlum qəhrəmanı Qulu (Mustafa Mərdanov) övlad həsrətilə yaşayır. O, 2 ildir ki, ailə qursa da, övladı olmur. Bunun üçün onun üz tutduğu "mötəbər" ünvan Molla Əbdüləzimdir (Mirzəağa Əliyev). Bu fırıldaqçı ruhani obrazı bizə Şeyx Nəsrullahı xatırladır. Molla Əbdüləzim üçün namaz, ibadət yalnız öz çirkin məqsədlərini pərdələmək üçün vasitədir. O, Qulunun gəldiyini görən kimi, araq şüşəsini gizlədib, guya, namaz qılmaqla məşğul olur. Kənd mühitindəki güclü cəhalət Qulunu belə fırıldaqçıların qulluqçusuna çevirir. O, ibadət etsə də, yalnız Allaha yox, Əbdüləzim kimi şarlatanlara da inanır. Qulunun saflığından istifadə edən mollanın onun arvadı Hökuməyə gözü düşür. Deyir ki, Hökuməyə övladının olması üçün "dua" yazmalıdır. Molla Əbdüləzim tək Qulunun yoldaşına deyil, kənddəki digər qadınlara da pis gözlə baxır. Cəhalət mühiti ona bu çirkin fəaliyyətində köməkçi olur.

Quludan fərqli olaraq, qardaşı Cəfər (İbrahim Azəri) ayıq-sayıqdır. O, Bakıda fəhlə işləyir. Dövrün ideoloji basqısı Cəfəri cumhuriyyət hökümətinə qarşı çıxan bolşevik kimi təqdim edir. O insanları hökumətə qarşı çıxmağa çağırır. Cəfər kəndə gələndə qardaşı Qulu ilə fikirləri toqquşur. Qulu sadəlövhcəsinə inanır ki, Molla Əbdüləzim kasıbların, zəiflərin himayədarıdır. Cəfər torpaqların kəndlilərin olmasını deyəndə Qulu Molla Əbdüləzimin Qurandan çıxış edərək böyüklərin üzünə ağ olmamaq çağırışını xatırladır. Təbii ki, Quranı oxuya bilməyən Qulu Molla Əbdüləzimin təsirinə düşməli idi.

Nəhayət, Qulunun övladı dünyaya gəlir. Molla Əbdüləzim Qulunu həbsə atdıraraq yoldaşının namusuna təcavüz edir. Həbsdən azad olunduqdan sonra Qulu mollanın yazdığı "dualar" nəticəsində ona övlad bəxş edildiyini zənn edir. Lakin Aşura günündə övladının alnının çərtilib ordan qan çıxarılması onun ölümünə səbəb olur. Qulu bu zaman artıq Tanrıya üsyan edir. Əslində, Qulu öz cəhalətinin qurbanıdır. Onun bütün faciəsi Molla Əbdüləzim kimi şarlatanlara inanması ilə bağlıdır.

Kəndin "mötəbər" ruhanisi Qulunun təkcə arvadına deyil, bacısına da göz dikir. Zeynəb ərə verildiyi gün yoldaşına bakirə olmadığını deyir və evdən qaçır. O, pambıq tarlalarında əziyyətlə işləyir. Sonradan əyninə kişi paltarı geyinərək Bakıya gedir. Zeynəbin kişi kimi göstərilməsi də təsadüfi deyil. Çünki dövrün hakim dairələri güclü qadın obrazlarının ortaya çıxmasında maraqlı idi. Bakı kənddə zülm görənlərin sığınacağı olur. Qulunu da, Zeynəbi də bolşevik çevrilişi "xoşbəxt" edir. Molla Əbdüləzim cəzalandırılır. Ona bəd əməllərə görə 10 il həbs cəzası verirlər. Film Qulunun məhkəmə zalında sevinib əl çalmasıyla bitir. Bununla da insanlara ancaq sovet hökumətinin səadət gətirəcəyi mesajı verilir.

Filmdə Aşura günü ilə bağlı səhnələr xronikal kadr kimi çəkilib. Bu barədə Mustafa Mərdanov xatirələrində belə yazmışdı: "Təbii çıxsın deyə, Abbas Mirzə bu səhnəni Aşura gününə saxladı. Aşura günü biz yalançı mollaların təbliğinə "uyub" başyaranlara qarışdıq. Aparatlar hazır idi. Abbas Mirzə lazım olan səhnəni, artistlərin iştirakı ilə çəkdi. Mollalar başa düşmədilər ki, biz bu epizodu film üçün çəkirik. Sonra hardansa xəbər tutdular, bir neçə nəfər yanımıza gəlib çəkdiyimiz lenti onlara verməyimizi tələb etdi. Güc-bəla ilə onları başa saldıq ki, guya, lenti işıq yandırıb. Əslində isə, lent çox yaxşı çıxmışdı".

Daha maraqlı məqam Qulunun övladını canlandıran uşaqla bağlıdır. O, görkəmli sənətkar Cəfər Cabbarlının oğlu Aydın idi.

"Bismillah" filmindən bizi, az qala, 100 il ayırır. Lakin filmin ortaya qoyduğu əxlaqi problem bu gün də düşündürücüdür. Çünki yaşadığımız çağda da, din adından çirkin işlər görənlər az deyil.

***Ceyhun MİRZƏLİ***

Yaddaşlarda yaşayanlar

**Biz tələbə olanda... çox şey indiki kimi deyildi. Elə bir istirahət günü olmurdu ki (təbii ki, yay ayları istisna olmaqla), hansısa ədəbi-bədii və ya elmi-kütləvi tədbirdə iştirak etməyək. Mən hələ institutun 1-ci kursunda oxuyanda Bəxtiyar Vahabzadə ilə Müəllimlər evində keçirilən görüşə getmişdim. Çıxışlardan sonra aparıcı soruşdu ki, kimin sualı var? Dedim mənim sualım yox, xahişim var. Hamıya maraqlı gəldi.**

# Bəxtiyar Vahabzadədən iki dəfə irad eşitmişəm

## İkinci irada görə, hətta, mükafatlandırılmışam



Xahişim çox sadə idi. Hələ orta məktəbdə oxuyanda ədəbiyyat müəllimimiz Adilə xanımdan eşitdiyim "Mən "Gülüstan" poemasını Bəxtiyar müəllimin öz səsində eşitmişəm" deməsini həmişə böyük həsədlə xatırlayırdım. İndi elə bildim ki, həmin fürsət əlimə düşüb. Ona görə də xahiş etdim ki, şair "Gülüstan" poemasından bir parçanı öz səsi ilə oxusun. Elə bildim, hamı alqışlayacaq. Ancaq tədbirin aparıcısı da etiraz etdi, şairin özü də. Sonra Bəxtiyar müəllim ayağa qalxaraq dedi ki, məlum faktları nə üçün yada salırsınız? Yeni şeir istəyin, oxuyum. Yeni şeirlərini oxudu.

Aradan iki, ya da üç il keçəndən sonra – yanılmıramsa, 1978-ci il idi – Bayılda, Neftçilərin mədəniyyət sarayında Bəxtiyar Vahabzadənin "Yazıçı" nəşriyyatında yenicə çapdan çıxmış "Sadəlikdə böyüklük" kitabının müzakirəsinə toplaşmışdıq. Tədbiri aparmalı olan adamın ciddi problemi çıxdığına görə həmin məsuliyyətli işi mənə etibar etdilər. Üstəlik, elan olundu ki, İttifaq Bəxtiyar müəllimin dərs demədiyi ali məktəbin tələbələrindəndir. Böyük etimad idi və deyəsən, elə ona görə də "çox göydən getdim": " Əziz dostlar, "Müşfiq bulağı" Ədəbi Birliyinin görkəmli yaradıcı ziyalılarla görüşmək ənənəsi davam edir. Bu gün biz sizinlə böyük şairimiz Bəxtiyar Vahabzadənin "Sadəlikdə böyüklük" kitabını müzakirə edəcəyik".

Şair arı sancmış adam kimi səksəndi: "Dayan!" Dayandım. Əlavə etdi: "Bəxtiyara böyük şair deyirsənsə, Füzuli, Sabir, Səməd Vurğun haqqında danışanda nə deyəcəksən? Böyük şair ifadəsi sizə o qədər də sadə gəlməsin. Füzulini, Sabiri tam oxumasan da, məlum məsələdir ki, Səməd Vurğunun əsərlərini başdan-ayağa oxumayan tələbə yoxdur. Sən Səməd Vurğunun misralarında böyük şair məfhumunun siqlətini görmədinmi?"

Doğrusu, çox pərt olmuşdum. Amma vəziyyətdən çıxmaq lazım idi. Həmin çıxış xəttini də Bəxtiyar müəllimin özü istiqamətləndirdi: "Sən Bəxtiyar haqqında danışanda "alim-şair", "sətirlərində lirika ilə fəlsəfə yanaşı addımlayan şair" deyə bilərsən. Yoxsa, başlamısan"böyük şair"...

"Bəli" – deyərək, səsimi bir az da ucaltdım və sanki, şüar səsləndirirmiş kimi fikrimi davam etdirdim:

***Bizim sənət dünyamızın***
***qırıq telli sazıyam,***
***Bircə ondan razıyam ki,***
***özümdən narazıyam!***

– deyən təvazökar şairimizn yaradıcılığı barədə eşitmək və ya onun haqqında danışmaq istəyən ədəbiyyatsevərlərə eşq olsun!

Həmin anda ağuşuna düşdüyüm xoşbəxtliyin qürurunu bu gün də eyni şəkildə yaşayıram. Bəxtiyar Vahabzadə əl çalmağa başladı və zaldakıların hamısı ona qoşuldu.

... Üç gün sonra eşitdim ki, mədəniyyət sarayının rəhbərliyi mənə 30 manat mükafat yazıb. Bədii rəhbər zarafatla dedi ki, bu 30 manat "böyük şair"in qarşısında pərt olmağın mükafatıdır.

***İ.QAÇAYEV***
***XQ***

# Mədəniyyət xəbərləri

## Qədim türk yazıları Niderlandda

***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən Niderland Krallığının paytaxtı Amsterdamda qədim türk yazılarından olan petroqliflərə, tamğalara və runik işarələrinə həsr edilmiş sərgi təşkil olunub.***

**Fondun Azərbaycan, Qazaxıstan və Türkiyənin Niderlanddakı səfirlikləri ilə işbirliyi çərçivəsində ərsəyə gələn sərgi Amsterdam Yunus Əmrə İnstitutunun binasında gerçəkləşib.**

**Fondun prezidenti Günay Əfəndiyeva sərginin açılış mərasimindəki çıxışında bildirib ki, layihədən məqsəd qədim türk yazı nümunələrinin tədqiq və təbliğ edilməsi, eləcə də geniş auditoriyalara çatdırılmasıdır. O, ümumtürk mədəniyyətinin ayrılmaz parçası olan qədim türk yazılarının bəşəri sivilizasiyanın inkişafında önəmli rol oynadığını vurğulayıb.**

**Azərbaycanın Niderland Krallığındakı səfiri Rəhman Mustafayev, Qazaxıstan səfiri Askar Jumagaliyev, Türkiyə səfiri Selçuk Ünal, Amsterdam Yunus Əmrə İnstitutunun rəhbəri Adil Akaltun türk xalqlarını birləşdirən qədim yazı irsinin araşdırılmasının müasir dövrdə önəmini vurğulayıb, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun bu istiqamətdə fəaliyyətini təqdir ediblər.**

**Sərgidə tətbiqi sənət ustalarının əl işləri təqdim olunub və ustad dərsləri keçirilib və mühazirə oxunub.**

## Azərbaycanlı rəssamın Tallində iki sərgisi

***İyirmi ildən bəri Estoniyada yaşayan Rövşən Nur bir çox beynəlxalq sərgilərin iştirakçısı kimi sənətsevərlərə yaxşı tanışdır. Rəssamın milli xalçalarımıza və təsviri sənətimizə həsr olunan sərgisi Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Tallinn şəhərindəki Dizayn və Memarlıq Qalereyasında açılıb.***



**Sərginin açılış mərasimində rəsmi şəxslər, mədəniyyət və incəsənət xadimləri, Estoniyada yaşayan etnik azlıqların nümayəndələri iştirak ediblər. Qonaqlara milli musiqi və rəqslərimiz, həmçinin Azərbaycan mətbəxinin ləziz təamları təqdim olunub.**

**Sərgidə rəssamın "Tarix" mövzusunda yaratdığı 100-ə yaxın əsəri nümayiş etdirilir. Ekspozisiyaya baxanlar onun fərdi yaradıcılıq üslubunu yüksək qiymətləndirirlər. Ziyarətçilərin, həmçinin xalçatoxuma və naxışların rəsmi üzrə ustad dərslərində iştirak etmək imkanı var.**

**Rövşən Nurun Milli Mədəniyyətlər Günü ilə əlaqədar daha bir sərgisi Tallinin "Baron" otelində təşkil olunub və davam edəcək. Bu sərgidə, həmçinin Azərbaycanın milli xalçaları nümayiş etdirilir, xalçaçılıq üzrə ustad dərslərinin təşkili nəzərdə tutulur.**

**"Tarix" sərgisi sentyabrın sonunadək, "Baron"dakı sərgi isə ayın 24-dək davam edəcək.**

## Şairin "Yaddaş ətri"

***Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda şair, Prezident təqaüdçüsü, Beynəlxalq Rəsul Rza ədəbi mükafatı laureatı Balayar Sadiqin yenicə çapdan çıxmış "Yaddaş ətri" şeirlər və poemalar kitabının təqdimatı olub.***




**Tədbiri AYB-nin katibi İlqar Fəhmi açaraq, çağdaş poeziyamızın tanınmış nümayəndələrindən biri olan Balayar Sadiqin yaradıcılıq məziyyətlərindən bəhs etdi. Şair-publisist Ağacəfər Həsənli, filologiya elmləri doktoru, professor Elman Quliyev, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli və başqaları müəllifin poetik duyumu, hadisələrə özəl yanaşması, poetikasının janr müxtəlifliyi barədə danışdılar. Qeyd olundu ki, kitabda şairin maraqla oxunan "Gülümsə, Vətən", "Qızılbaş", "Sözün Lənkəran ətri", "İstanbula məktub" və "Zindan görüşləri" poemaları da yer alıb. Natiqlər ona yeni yaradıcılıq uğurları arzuladılar.**

**Balayar Sadiq tədbirə görə AYB rəhbərliyinə, xoş sözlərə görə natiqlərə minnətdaqlığını bildirdi, yeni şeirlərini oxudu və "Yaddaş ətri"nin nüsxələrini imzalayaraq oxuculara təqdim etdi.**

**Hazırladı:**
**Ə.DOSTƏLİ**
**XQ**

Azərbaycan teatrı – 150

# Milli Dram səhnəsində yeni tamaşalar hazırlanır

**Xəbər verdiyimiz kimi, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı 151-ci teatr mövsümünü ənənəvi olaraq Xalq yazıçısı İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırlanmış "Qarabağnamə" tamaşası ilə acdı. Teatr ötən mövsümü də bu tamaşası ilə başa vurub.**




Artıq neçə illərdir ki, baş teatr mövsümün açılışını və bağlanışını bu tamaşa ilə edir. İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında hazırlanmış bu tamaşa ilk dəfə 1996-cı ildə nümayiş olunub. Pyes böyük müvəffəqiyyət qazanıb və 1997-ci il sentyabrın 20-də ümummilli lider Heydər Əliyev Akademik Milli Dram Teatrının səhnəsində tamaşanı maraqla izləyib. Yaradıcı heyətlə görüşdə Ulu öndər əsəri yüksək qiymətləndirib, onun təbliğinin vacibliyini bildirib.

Tamaşa bu mövsüm regionlarda da oynanılacaq. Mədəniyyət Nazirliyi ümummilli lider Heydər Əliyevin 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində regionlara teatrların qastrol səfərlərini bu mövsümdə də davam etdirir. Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı sentyabrın 26-da "Qarabağnamə" tamaşası ilə Şəki Dövlət Dram Teatrında çıxış edəcək.

Ötən mövsümdə Milli Dram Teatrının repertuarına yeni tamaşalar da əlavə olundu. Ən son tamaşanın premyerası iyunun 30-da oldu. Yazıçı Cavid Zeynallının "Şükriyyə" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur. Rolları əməkdar artist Münəvvər Əliyeva (Şükriyyə), Xalq artisti Nurəddin Mehdixanlı (Fyodor Alekseyeviç), Xalq artisti Əli Nur (Süleyman bəy), əməkdar artistlər Mehriban Xanlarova (Zöhrə), Vəfa Rzayeva (Mariya), aktyorlar Afət Məmmədova (Tamar), Rada Nəsibova (Lola), Ləman İmanova (Suğra), Əməkdar artist Şəlalə Şahvələdqızı (Qadın müstəntiq), aktrisa Dilarə Nəzərova (Olqa), aktyor Rüstəm Rüstəmov (Nəzarətçi), aktrisalar Aylin Həşimova (Lali), Lalə Süleymanova (Nino), Nəzrin Abdullayeva (Ayçiçək), aktyorlar Elsevər Rəhimov və Tural İbrahimov (Nəzarətçilər) oynayırlar.

Tamaşa Azərbaycanın istiqlal şairi Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Axundzadənin Qazaxıstandakı sürgün həyatı haqqındadır. O, 1937-ci il oktyabrın 14-də həbs olunub. Şükriyyə xanıma 8 il həbs cəzası verilib və "xalq düşməninin arvadı" kimi Şimali Qazaxıstanın Akmolinski vilayətinə – əmək koloniyasına göndərilib.

Ötən mövsüm Milli Dram Teatrında daha bir əlamətdar hadisə baş verib. Teatr Mədəniyyət Nazirliyinin dəstəyi ilə Gürcüstanda keçirilən Nodar Dumbadze adına IV Beynəlxalq Teatr Festivalında iştirak edib. Teatrın təqdimatında məşhur gürcü yazıçısı Qoderzi Çoxelinin eyniadlı hekayəsi əsasında səhnələşdirilən "Küknarlara məktub" tamaşası uğurla qarşılanıb. Əsər festivalın beynəlxalq münsiflər heyəti tərəfindən yüksək dəyərləndirilib və "Gürcü nəsrinin ən yaxşı interpretasiyasına görə" mükafatına layiq görülüb.

Tamaşanın quruluşçu rejissoru Nigar Güləhmədovadır. Rollarda əməkdar artistlər Elşən Rüstəmov, Almaz Amanova, Ayşad Məmmədov, aktyorlar Rüstəm Rüstəmov, Ramin Şıxəliyev, Dilarə Nəzərova, Elçin Əfəndi, Firuzə Balayeva, Lalə Süleymanova çıxış edirlər.

Bütün bu hesabatlar və yeniliklər barədə açılışdan öncə teatrın bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə yaradıcı heyətlə görüş zamanı bəhs edib. Bədii rəhbər kollektivin gələcək planları, hazırlanacaq tamaşalar haqqında məlumat verib.

Teatrda yeni mövsümdə 3 tamaşa hazırlanacaq. Yeni yaradıcılıq işləri Çingiz Aytmatovun "Əsrə bərabər gün", Şıxəli Qurbanovun "Sənsiz" və Xalq yazıçısı Anarın "Dantenin yubileyi" əsərləri əsasında hazırlanacaq eyniadlı tamaşalardır.

***R.QURBANLI***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Nyu-Yorkda “C5+1” platforması çərçivəsində görüş

**Rəsmi Vaşinqton artıq nəzərlərini Orta Asiya dövlətlərinə də yetirməyi qərara alıb. Ağ evdə başa düşüblər ki, zəngin təbii ehtiyatları və insan resursları olan bu regionu gözardı etmək olmaz. Ən azı ona görə ki, ABŞ-ın əsas rəqibi hesab olunan Çin artıq bölgədə xeyli güclənib.**



Bir müddət əvvəl qlobal mediada belə bir məlumat yayıldı ki, Prezident Co Bayden BMT Baş Assambleyasının növbəti 78-ci sessiyasında iştirak edən Orta Asiya dövlətlərinin liderləri ilə Nyu-Yorkda görüşməyi planlaşdırır. Bu, kifayət qədər diqqətçəkən bir xəbər idi, çünki bu vaxta qədər belə bir formatda görüş keçirilməmişdi.

Nəhayət, sentyabrın 20-də ABŞ-nin dövlət katibi Entoni Blinkenin də iştirak etdiyi tədbirdə Prezident Co Bayden Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Türkmənistanın dövlət başçılarını salamlayıb bildirdi ki, bu, tarixi görüşdür, onun ölkəsi bu əməkdaşlığa böyük önəm verir. Dövlət başçısının sözlərinə görə, qarşılıqlı etimada söykənən sıx əməkdaşlıq bütün tərəflərə fayda gətirə bilər.

Həqiqətən, “C5+1” platforması Birləşmiş Ştatlar ilə Orta Asiya dövlətləri arasında hərtərəfli əlaqələrin genişlənməsi üçün yeni imkanlar açır. Ağ ev, ilk növbədə, region ölkələri ilə beynəlxalq terrorizmə qarşı mübarizədə sıx əməkdaşlıq etmək niyyətindədir. Bundan başqa, amerikalı iş adamları üçün Orta Asiyanın özəl sektoru kifayət qədər cəlbedicidir.

Rusiya ilə Çinin əhatəsində yerləşən Orta Asiya dövlətləri adları çəkilən hər iki böyük ölkə ilə geniş əlaqələrə malikdirlər. Düzdür, region dövlətlərinin Rusiya ilə münasibətlərinin tarixi iki yüz ilə yaxın bir müddəti əhatə edirsə, Çinlə sıx birbaşa əlaqələr yalnız son bir neçə onillər ərzində başlayıb və yüksələn xətlə inkişaf edir.

Yeri gəlmişkən, Çinin regionda “çəkisi”nin artması Vaşinqtonu çox narahat edir. Amma Pekini bölgədən sıxışdırıb çıxarmaq o qədər də asan deyil. Ona görə ki, Qədim İpək Yolunun üzərində yerləşən Orta Asiya ölkələri Orta Dəhliz vasitəsilə həm Çin, həm də Avropa ilə ticarət əlaqələrini genişləndirməkdə maraqlıdırlar.

Eyni zamanda region dövlətləri üçün ABŞ-la hərtərəfli əməkdaşlıq yeni fürsətlər yaradır. Bir tərəfdən onlar özlərini daha təhlükəsiz bir “çətir” altında hiss edəcəklər, o biri tərəfdən də bölgə iqtisadiyyatının ABŞ sərmayəsinə böyük ehtiyacı var.

Maraqlıdır ki, görüşdə iştirak edən dövlət başçılarının heç biri tədbir başa çatandan sonra mətbuata hər hansı bir açıqlama verməyib. Görünür, təcrübəli dövlət başçıları nə Moskvanı, nə də Pekini qıcıqlandırmaq istəməyiblər.

ABŞ-dakı nüfuzlu Pitsburq Universitetinin professoru Cenifer Brik Murtazaşvili “C5+1” platformasında əməkdaşlığa start verilməsini uğurlu addım hesab edir. O, jurnalistlərə bu məsələ ilə bağlı bildirib ki, hələ bu vaxta qədər Birləşmiş Ştatların heç bir prezidenti Orta Asiya dövlətlərinə bir dəfə də olsun səfər etməyib. Yəni Vaşintqon bu regionun əhəmiyyətini layiqincə dəyərləndirməyib. Bəlkə, bundan sonra dəyərləndirdi.

Ağ evin Milli Təhlükəsizlik Şurasının keçmiş əməkdaşı Erik Qrin isə “Amerikanın səsi”nin Özbəkistan xidmətinin müxbirinə bildirib ki, Rusiyanın Ukraynaya hücumu bir çox ölkələri, eləcə də Orta Asiya dövlətlərini öz xarici siyasət prioritetlərinə yenidən baxmağa sövq edib. Onun fikrincə, Nyu-Yorkdakı görüş iki mühüm amildən qaynaqlanır. Birincisi, Rusiyanın Ukraynaya hərbi təcavüzündən sonra MDB məkanında yeni geosiyasi reallıqlar yaranıb. Bu, Orta Asiya liderlərini də ehtiyatlandırır.

İkincisi, regionun özündə ciddi inteqrasiya prosesləri gedir. Burada dövlətlərin rəsmiləri arasında tez-tez görüşlər keçirilir. Liderlər başa düşürlər ki, qarşılıqlı əməkdaşlıq regionda sabitlik və inkişaf üçün də meydan yaradır.

Ağ ev regiona təkcə sabitlik deyil, həm də sərmayə gətirə bilər. Bunu Türkmənistanın 41 yaşlı Prezidenti Sərdar Berdiməhəmmədov da dərk edir. O, üç gün əvvəl BMT tribunasından çıxış edərkən deyib ki, Orta Asiya respublikaları üçün ABŞ-la hərtərəfli əlaqələr qurmağın vaxtı çoxdan çatmışdır.

Siyasi təhlilçilər belə bir məqama da diqqət yetirirlər ki, C.Bayden görüşdə insan haqları və demokratiya məsələlərinə toxunmayıb. Halbuki əvvəllər Vaşinqton həftə səkkiz, mən doqquz bu məsələdə region ölkələrini qınayırdı. Buna baxmayaraq, Orta Asiya dövlətləri Əfqanıstanla müharibə zamanı ABŞ-ı birmənalı olaraq dəstəkləyiblər.

C.Bayden sonda tədbirin səmimi və məhsuldar keçdiyini vurğulayıb və növbəti görüşün məhz Orta Asiya dövlətlərinin birində keçirilə biləcəyinə eyham vurub. Qeyd edib ki, həmkarları ilə yenidən görüşüb müzakirələr aparmaq arzusundadır.

***Məsaim ABDULLAYEV***
***XQ***

## Ekspert rəyi



**Şahbaz ŞAMIOĞLU, Slavyan Universitetinin professoru, siyasi şərhçi:**

– Ağ evin hazırkı sahibinin Nyu-Yorkda 5 Orta Asiya dövlətinin prezidentləri ilə görüşüb müzakirələr aparması faktı son vaxtlar dünyada gedən geosiyasi proseslər müstəvisindən nəzərdən keçirilməlidir. Yeni dünya düzəni formalaşır və böyük güclər qüvvələr nisbətini öz xeyirlərinə formalaşdırmağa çalışırlar.

Çinin dünyanın bir çox regionlarında, eləcə də Orta Asiyada siyasi, iqtisadi, hətta hərbi təsirinin artması Vaşinqtonun nəzərindən qaçmayıb. Eyni zamanda, vurğulamaq lazımdır ki, ABŞ dövləti bu istiqamətdə artıq xeyli vaxt itirib və tələsik həmin boşluğu doldurmağa çalışır.

Fikrimcə, Prezident Co Baydenin Orta Asiya dövlətlərinin liderlərinə xüsusu diqqəti məhz bu amillərdən qaynaqlanır.

Yeri gəlmişkən, Nyu-Yorkda “C5+1” paltformasında keçirilən görüş təkcə Orta Asiya respublikaları üçün deyil, Cənubi Qafqaz regionu, eləcə də Azərbaycan üçün böyük önəm daşıyır. Belə ki, ölkəmiz ilə həmin dövlətlərin böyük siyasi, iqtisadi və mədəni əlaqələri var. Rəsmi Bakı regionda sabitliyin qorunub möhkəmlənməsində maraqlı tərəflərdən biridir.

Təsadüfi deyil ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev bir neçə gün bundan əvvəl Mərkəzi Asiya Dövlət Başçılarının Düşənbədə keçirilən 5-ci məşvərət görüşündə iştirak edib. Bu fakt bir daha sübut edir ki, Orta Asiya respublikaları sürətlə inkişaf və tərəqqi edən Azərbaycanı özlərindən ayrı təsəvvür etmirlər.

SƏRBƏST GÜLƏŞ

**Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatında sərbəst güləş üzrə yarışa yekun vurulub.**

Dünya çempionatı ərəfəsində yarışda gözlənilən nəticələrlə bağlı proqnozlar idman ictimaiyyətini xeyli ruhlandırmışdı. Mundialdan maksimum nəticələr və rekordlar gözləyirdik. Əslində, komandanın heyətinə nəzər salsaq, güclü potensiala malik güləşçilər görərik. Mundial ərəfəsində sərbəst güləş üzrə yığmanın baş məşqçisi Xetaq Qazyumov komandamızın Olimpiadaya minimum 6 lisenziya qazanmağı hədəflədiyini bildirmişdi. Bu il Xorvatiyada keçirilən Avropa çempionatında millimiz böyük uğur qazanaraq komanda hesabında 1-ci yeri tutmuşdu.

# Pəhləvanlarımızın gücü və gücsüzlüyü

*Fiziki hazırlıqla yanaşı, özünəinam da əsasdır*



Qitə çempionatında 70 kiloqram çəki dərəcəsində mübarizə aparan millinin lideri Hacı Əliyev 4-cü dəfə Avropa çempionu adına layiq görüldü. Üçqat dünya çempionu bu nüfuzlu yarış əfərəsində bildirmişdi ki, daha yaxşı formadadır və dünya çempionluğunu hədəfləyib. Hacı Əliyevlə yanaşı, heyətdə 6 illik qızıl medal həsrətinə son qoya biləcək digər güclü pəhləvanlar da yer almışdılar. Yekunda millimiz bu nüfuzlu turniri 2 gümüş medal və 1 Olimpiya lisenziyası ilə başa vurdu. Komandamızın mundialda qazandığı nəticələri qənaətbəxş hesab etmək olarmı?

Baş məşqçi Azərbaycan Güləş Federasiyasının rəsmi saytına müsahibəsində güləşçilərimizin çıxışlarını qiymətləndirib. Yığma üzvlərinin fiziki cəhətdən çox hazırlıqlı olduqlarına baxmayaraq, bəzi məqamlarda özünəinamın zəif olduğunu diqqətə çatdırıb:

– Dünya çempionatına 2 gümüş medal üçün yox, daha yüksək nəticələr üçün getmişdik. 74 kiloqram çəkidə medal və lisenziya əldə edə bilərdik. Püşkü münasib olan Abubakr Abakarovun (86 kq) da medal və lisenziya qazanmaq şansı yüksək idi. Osman Nurmaqomedov (92 kq) və Maqomedxan Maqomedov (97 kq) yeni dünya çempionu ola bilərdilər. Bunlar baş versəydi, nəticədən ümumilikdə razı qalmaq olardı. Əslində, komandamızın yaxşı potensialı var. Bura gələndə böyük həcmdə iş görmüşdük. Çoxlu təlim-məşq toplanışları keçmişdik. Fiziki cəhətdən çox hazırlıqlıydıq. Sadəcə, bəzi məqamlarda özünəinam çatışmadı.

Xetaq Qazyumov bu il Avropa çempionatının qalibləri Əliabbas Rzazadənin (57 kq) və Hacı Əliyevin məğlub olma səbəblərindən danışıb:

–Əliabbas Rzazadə ilk görüşdə ABŞ-ın çox güclü güləşçilərindən biri, dünya çempionu və olimpiya mükafatçısı Tomas Gilmanı məğlub edən Zeyn Riçardsa qalib gəlsə də, İranın gənc güləşçisi ilə bacarmadı. Əliabbasın növbəti mərhələlərdə üz-üzə gələcəyi Albaniya və Rusiya güləşçiləri ilə görüşləri fikirləşdiyini bildiyimiz üçün onu nə qədər bu qarşılaşmaya köklənməyə çalışsaq da, alınmadı. Nəticədə öz imkanlarından aşağı səviyyədə çıxış etdi.

Hacı Əliyev (65 kq) ilk 3 rəqibinə qalib gəldi. Təsnifat mərhələsində burnundan zədələndi. Bu da müəyyən qədər ona problem yaratdı. Təəssüf ki, Ermənistan idmançısına məğlub oldu. Bu yarışda Vazgen Tevanyan daha güclü idi. Görüş başlayan kimi xallar aldı, sevimli çevirmə fəndindən istifadə etdi. Hacı çox təcrübəli güləşçidir. Həmin görüşdən sonra onunla danışmamışam. İsti-isti bu barədə danışmaqdansa, bir müddət sonra soyuq başla qarşılaşmanı təhlil etmək daha doğrudur. Hər şeyi detallı şəkildə nəzərdən keçirəcəyik. İndi Hacı həm özünə, həm də kapitan kimi komandanın nəticəsinə görə çox məyusdur.

Baş məşqçi komandanın digər üzvü Abubakr Abakarovun (86 kq) təəssüf ki, zədələndiyini və bunun nəticəyə təsir etdiyini vurğulayıb. Turan Bayramovun (74 kq) isə özünə çox inandığını, amma bu çəkidə hazırda Zaurbek Sidakov (Rusiya) və Kayl Deykin (ABŞ) çox güclü olduqlarını, təcrübə baxımından onlardan geri qaldığını deyib:

–Məğlub olursansa, bunun səbəbini başqa şeylərdə yox, özündə axtarmalısan. Görüş ərzində yorulsan və əhval-ruhiyyən yaxşı olmasa belə, son anadək rəqibə diş göstərməlisən. Maksimum gücünü ortaya qoymalısan. Bürünc medal uğrunda görüşdə sakit və taktiki baxımından savadlı güləşmək olardı. Təəssüf ki, Serbiya idmançısına qarşı müəyyənləşdirdiyimiz taktikayla güləşmədi. Daim hücum etməyi və rəqibi təzyiqdə saxlamağı tapşırmışdıq. Xəbərdarlıq etmişdik ki, Hetik Çabolova qarşı dayanıb güləşməklə qələbə qazanmaq mümkün deyil. Yalnız ondan daha üstün təcrübə və səviyyədə olmalısan ki, bu qaydada qalib gələsən. Əslində Turanın funksional hazırlığı daha yaxşı idi. Taktiki səhvə yol verdi.

Sonda funksioner qeyd edib ki, məşqçilər heyəti öz üzərinə düşən işi maksimum yerinə yetirir:

–Ancaq biz idmançının yerinə xalçaya çıxıb, güləşə bilmərik. Dairənin içərisində olanda bütün məsuliyyəti güləşçi daşıyır. Bu zaman artıq idmançının dözümü və xarakteri üzə çıxır. Güləşçi həm özü, həm ailəsi, həm də ölkəsi adına məsuliyyət daşıyır və bunu dərk etməlidir. Yenə deyirəm, güləşçilərimizin potensialı var. Sadəcə, gələcək yarışlarda özünə inanmaq və əsl çempionlara xas xarakter nümayiş etdirmək lazımdır. Dünya liderləri sırasında olmaq üçün bir neçə aylıq qısa müddətdə böyük işlər gördük. Çoxlu intensiv məşqlər keçdik. Ancaq bir komandanı tam formalaşdırmaq üçün illər lazımdır. Bundan sonra ciddi nəticələr haqqında danışmaq olar.

Həmişə güləşçilərə deyirik ki, sən xalçada təkcə güləşmirsən, sanki rəqiblə müharibə aparırsan. Qonq çalınana kimi yox, hakim səni saxlayana kimi rəqiblə mübarizə aparmalısan. Bax onda nəticə də olacaq, zədə də olmayacaq və sən qalib gələcəksən.

Qeyd edək ki, 2 gümüş medal qazanan yığmamız 66 xalla komanda hesabında 5-ci yeri tutub. Ötən ilki dünya çempionatında isə millimiz 2 bürünc medalla (42 xal) 8-ci pillədə qərarlaşmışdı.

***Leyla QURBANOVA***
***XQ***

## Yunanıstanın Baş naziri: “Türkiyə ilə əməkdaşlıq vacibdir”

**“Miqrasiya axınının azaldılması üçün Türkiyə ilə əməkdaşlıq vacibdir”. Bu fikri Yunanıstanın Baş naziri Kiriakos Miçotakisi Nyu-Yorkda Prezident Rəcəb Tayyib Ərdoğanla görüşü zamanı deyib.**



Ərdoğanla xarici işlər nazirləri və diplomatik müşavirlərin müşayiəti ilə məhsuldar görüş keçirdiklərini ifadə edən Miçotakis Türkiyə–Yunanıstan münasibətlərində son aylar müsbət ab-havanın dərinləşməsi üçün işi davam etdirməyin vacibliyini vurğulayıb.

Mitsotakis növbəti Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının (YDİK) iclasını dekabrın 7-də Salonikidə keçirməyə qərar verdiklərini xatırladaraq, hər iki ölkənin üzləşdiyi ortaq problemlərin müzakirəsi fürsəti əldə etdiklərini bildirib.

“Miqrasiya axınının minimuma endirilməsi üçün Türkiyə ilə əməkdaşlığın vacibdir”, - Mitsotakis deyib.

***XQ***



## Pakistanda parlament seçkiləri keçiriləcək

**Pakistanda parlament seçkiləri 2024-cü il yanvarın sonuncu həftəsində keçiriləcək. Bu barədə Pakistan Seçki Komissiyası məlumat yayıb.**

Açıqlamada seçkilərin keçiriləcəyi günlə bağlı məlumat verilməyib. Bildirilib ki, 127 milyon seçicinin səs verəcəyi bu siyasi kampaniyada növbəti 5 il müddətinə yeni parlament seçiləcək.

Qeyd edək ki, Pakistanda sonuncu dəfə parlament seçkiləri 2018-ci il oktyabrın 25-də keçirilib. Həmin siyasi kampaniyada İmran Xanın başçılıq etdiyi Təhrik-i İnsaf Partiyası qalib gəlmişdi. Həmin ildən 2022-ci il aprelin 10-dək İmran Xan Pakistan hökumətinə başçılıq edib. Bu tarixdə Pakistan parlamentində İmran Xana etimad məsələsi səsə qoyulub. Deputatların 174-ü onun əleyhinə səs verib. Nəticədə, İmran Xan hökuməti istefaya göndərilib. Onu üç dönəm Pakistan hökumətinə başçılıq etmiş Nəvaz Şərifin qardaşı Şahbaz Şərif əvəz etmişdi. O da 2023-cü ilin avqustunadək baş nazir olub.

2023-cü il avqustun 14-dən keçid hökumətinə Anvarul Hak Kakar başçılıq edir.

***XQ***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan yumşaq inventarların satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il sentyabrın 29-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 205 (30321) 22 sentyabr 2023-cü il, cümə

Maraq dünyamız

# “Cırtdan ulduz”lar Günəşdən 2 dəfə ağırdır

**Neytron ulduzlarının mövcudluğu 1967-ci ildə qadın astrofizik Cozelin Bellin pulsarları (şüalar yayan və öz oxu ətrafında yüksək sürətlə dövr edən neytron ulduz) aşkar etməsindən sonra məlum olub. Bu ulduzlar Günəşdən 70 min dəfə kiçikdir. Onların diametri ortalama 10–20 kilometr, kütləsi isə Günəşdən 2 dəfə çoxdur. Bir qaşıq neytron ulduzu maddəsinin çəkisi Yer kürəsində 100 milyon tona bərabərdir. Həmin maddə neytron ulduzda 6 milyard tondur.**




Xatırladaq ki, neytron ulduzları – Supernova (güclü partlayış nəticəsində parlaqlığı kəskin artan ulduz) partlayışı zamanı ortaya çıxan çox sıx və öz oxu ətrafında sürətlə dövr edən obyektlərdir. Partlayışı nəticəsində ulduzun üst qatları kosmosa dağılır, ortada isə həmin ulduzun yalnız nüvəsi qalır. Yüksək təzyiq və temperatur altında nüvənin elektronları və protonları birləşərək neytronları əmələ gətirir. Bu supersıx və kütləli nüvəni Neytron ulduzu adlandırırlar.

*P.ƏFƏNDİ*
*XQ*

# “Qum oteli” quma dönüb

**Qum oteli ilk dəfə Avstraliyada istifadəyə verilib. Qumdan düzəldilmiş bu otelin mövcudluğu cəmi 3 gün çəkib. Kövrək tikinti materialından hazırlanmış otaqlarda qonaqların tam şəkildə yerləşdirilməsi mümkün olmadığı üçün fəaliyyətini dayandırıb.**



Bundan sonra İngiltərədə oxşar təcrübə keçirməyə qərar verilib. “Weymouth Beach” çimərliyində qum otelinin ömrü bir qədər uzun olub. Amma yağışların yaratdığı dağıntılara görə o da bağlanmaq məcburiyyətində qalıb.

# İnsanın görünməyən aləmi

**❐ Dəniz səviyyəsindən müəyyən bir hündürlük var ki, orada təzyiq o qədər aşağı olur ki, insanın qanı qaynamağa başlayır. Bu nöqtə Armstronq sərhədi adlanır və o, 19 min 200 metr yüksəklikdə yerləşir.**



- İnsan sümükləri struktur və mineral tərkibinə görə bəzi mərcan növlərinə bənzəyir.
- İnsan 200 dərəcə selsi istiliyinə dözə bilir. Bu, 1990-cı ildə ABŞ-da aparılan eksperimentlə sübut edilmişdir.
- Bəzi insanlar hər iki əli ilə eyni dərəcədə yaxşı yaza bilirlər. İKİ ayağı ilə qol vuran futbolçular var.
- Qan kapilyarlardan 109 sm/saat sürətlə, ürəkdən isə 1,6 km/saat sürətlə keçir.
- İnsanın dad hissləri hər 10 gündən bir dəyişir, ona görə də qısa müddətdə eyni qidalar bizə fərqli görünə bilər.

*XQ*

# Donmuş torpaq qatı da əriyir

**Qütb buzlaqları ilə yanaşı, Yer səthinə yaxın olan permafrostlar da (daimi donmuş torpaq qatı) əriyir 2100-cü ilə qədər bu donuşluq yox ola bilər. Bunu hazırkı iqlim meyillərini planetin 3 milyon il əvvəlki iqlimi ilə müqayisə edən beynəlxalq alimlər qrupu proqnozlaşdırıb.**



Tədqiqatın nəticələri “Proceedings of the National Academy of Sciences” jurnalında dərc olunub.

2100-cü ilə qədər torpağın üst qatında səthə yaxın permafrost yalnız Şərqi Sibir dağlarında, Kanada Arktikası arxipelaqında və Qrenlandiyada mövcud ola bilər.

Alimlər deyirlər ki, növbəti 77 il ərzində yer səthinə yaxın olan bu qədər permafrostun itirilməsi insanların yaşayış vasitələri və infrastruktur, qlobal karbon dövrü, yerüstü və yeraltı hidrologiya üçün geniş nəticələrə səbəb olacaq.

*L.QURBANOVA*
*XQ*

İdman xəbərləri

# “Qarabağ” Avropa Liqasının qrup mərhələsinə qələbə ilə başlayıb



**“Qarabağ” UEFA Avropa Liqasının qrup mərhələsində mübarizəyə start verib.**

H qrupunda yer alan Azərbaycan çempionu ilk oyununda Norveç klubu “Molde” ilə qarşılaşıb. Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən qarşılaşmanın 56-cı dəqiqəsində komandamızın heyətində Leandro Andrade fərqlənib - 1:0. Bu qol həm də matçın taleyini həll edib. Beləliklə, oyun “Qarabağ”ın xeyrinə 1:0 hesabı ilə başa çatıb.

Qarşılaşmanı şotlandiyalı hakim Con Biton idarə edib.

Qeyd edək ki, II turun oyunları oktyabrın 5-də keçiriləcək. Həmin gün “Qarabağ” “Hakken”in, “Bayer” isə “Molde”nin qonağı olacaq.

# Millimizin reytinqdə mövqeyi dəyişməz qalıb

**Sentyabr ayı üçün milli komandaların dünya reytinqi müəyyənləşib.**

FIFA-nın açıqladığı cədvəldə Azərbaycan milli komandasının mövqeyi dəyişməz qalıb. Milli komanda 1147 xalla 121-ci pillədədir.

Hesabında 1475 xal olan Türkiyə yığması bir pillə geriləyərək 42-ci yerdə qərarlaşıb.

DÇ-2022-nin qalibi Argentina yığması 1851 xalla liderdir. Fransa (1840) ikinci, Braziliya (1837) isə üçüncü sıradadır.

# Dünya çempionatı: 3 final, 1 Olimpiya lisenziyası

**Azərbaycanın yunan-Roma güləşçiləri Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatında yarışın ilk günündə uğurla çıxış ediblər.**



Güləşçilərimizdən Sənan Süleymanov (77 kq) yarımfinalda Ermənistan təmsilçisi Malxas Amoyana 5:0 hesabı ilə qalib gələrək finala yüksəlib və Olimpiadaya lisenziya əldə edib.

Komandamızın digər üzvləri Eldəniz Əzizli (5 kq) iranlı Puya Dad Marzanı 3:2, Rafiq Hüseynov (82 kq) isə türkiyəli Burhan Akbudakı sonuncu xal prinsipinə əsasən (5:5) məğlub edərək 3-cü dəfə dünya çempionatının finalına yüksəliblər.

*Leyla SABİRQIZI*
*XQ*

Texnologiya yenilikləri

# “WhatsApp”da yeni xidmətlər

**Mark Zukerberq “Meta”nın “Instagram” kanalında “WhatsApp”a yeni funksiyaların gələcəyini açıqlayıb. Artıq “Instagram” və “Facebook”dan başlayaraq “Meta Verified”, yəni təsdiqlənmiş mavi nişanlı hesabların tezliklə “WhatsApp”a gələcək.**



Bundan əlavə, istifadəçilər “WhatsApp”da biznes hesablar üzərindən müxtəlif ehtiyacları dəstəkləyən fərdiləşdirilə bilən formalar yarada biləcəklər. “WhatsApp” üzrə ödəniş edərək biznes hesablardan alış-veriş etmək də asanlaşacaq.

*XQ*




# Milli Kitabxanada “Beynəlxalq Sülh Günü”

**Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən “Beynəlxalq Sülh Günü” adlı virtual sərgi hazırlanıb. Burada mövzu ilə əlaqədar fotolar, məqalələr və kitablar nümayiş olunur.**

Məlumat üçün bildirək ki, BMT-nin Baş Assambleyasının 1981-ci il 30 noyabr tarixli qərarı ilə hər il sentyabrın 21-i Beynəlxalq Sülh Günü kimi qeyd olunur. Dünyanın 192 ölkəsi yekdil olaraq bu qərarın lehinə səs verib. Beynəlxalq Sülh Günü müharibə, təbii fəlakətlərin nəticələri, aclıqdan və ayrı-ayrı dövlətlərin iddialarından meydana gələn regional qarşıdurmalardan əziyyət çəkən milyardlarla insanın ağrılarını duymaq üçün fürsətə çevrilib.

*XQ*

Sağlamlıq

# “Yumurtanı axşam ye”

**Yumurta protein və zülal mənbəyi kimi həm də arıqlamaq istəyənlər üçün günün müəyyən saatlarında qəbul edilən qidadır. Həkim İqor Strokov artıq çəkidən əziyyət çəkib arıqlamaq istəyənlərə maraqlı məsləhət verib.**



O bildirib ki, tez arıqlamaq istəyənlər yumurta yeyə bilərlər. Çünki yumurtada olan zülal maddələr mübadiləsini aktivləşdirir, əzələ kütləsini formalaşdırır. Amma arıqlamaq üçün yumurtanı səhərlər yemək uyğun deyil. Onu axşamlar yemək lazımdır, həm asan həzm olacaq, həm də yuxunu yaxşılaşdıracaq.

Orqanizm axşam yeyilən yumurtanı həzm etmək üçün çox enerji xərcləyir, nəticədə, artıq piylər yanır. Beləliklə, insan yuxuda artıq kilolardan xilas ola bilir.

Pəhriz zamanı yumurtanın suda qaynadılmışı yeyilir. Onu tərəvəzlərlə qarışdırıb yağsız bişirmək də olar.

Həkim, həmçinin yumurtanın qanda şəkəri tənzimlədiyini də bildirib.

Xalqımızda isə, nədənsə, belə bir deyim var: “Yumurtanı səhər özün ye, günorta dostuna ver, axşam düşməninə”.

*Z.HÜSEYNLİ*
*XQ*



# Göylərin qaş-qabağı tutulacaq...

***Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək.***

Havanın temperaturu gecə 16-19° isti, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu olacaq. Nisbi rütubət 50-60 faiz olacaq.

Azərbaycanın rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 16-20° isti, gündüz 23-28° isti, dağlarda gecə 4-9° isti, gündüz 12-17° isti olacaq.

*Q.QƏZƏNFƏR*
*XQ*

HADİSƏ

# Liftin girovluğunda...

**Ötən sutka ərzində Fövqəladə Hallar Nazirliyinin (FHN) “112” qaynar telefon xəttinə Bakı şəhərində iki halda liftdə köməksiz vəziyyətdə qalma hadisəsi barədə məlumat daxil olub.**



FHN-nin saytı xəbər verir ki, məlumatla əlaqədar qurumun Xüsusi Riskli Xilasetmə Xidməti və Bakı Regional Mərkəzinin müvafiq xilasetmə qüvvələri çağırış üzrə cəlb olunub.

Həyata keçirilən xilasetmə tədbirləri nəticəsində 1-i uşaq olmaqla 2 nəfərə müvafiq kömək göstərilir.

*XQ*

✓ Beyləqan Rayon Hərbi Komissarlığı tərəfindən Sadıqov Zabit Tahir oğlunun adına verilmiş Qarabağ müharibəsi veteranının 049770 nömrəli vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5024
SİFARİŞ 2400
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00